# Ermənistan-Azərbaycan müharibəsində azərbyacanlı əsirlərə qarşı pis rəftar və işgəncələrlə bağlı ilkin

# HESABAT

**Bakı**

**Dekabr 2020**

***Hesabat “Cəmiyyətin və Vətəndaş Münasibətlərinin İnkişafı” İctimai Birliyinin sədri Əhməd N. Abbasbəyli tərəfindən hazırlanmışdır.***

## Mündəricat:

1. Əsir və girovlar anlayışları. Beynəlxalq normativ sənədlər..........................5
2. Ermənistan-Azərbaycan münaqişəsinin Birinci Qarabağ müharibəsində azərbaycanlı əsirlərə qarşı pis rəftar və işgəncələrlə bağlı məlumatlar........9
3. Ermənilərin azərbaycanlı əsir və girovlara qarşı törətdikləri işgəncələrin (vəhşiliklərin) bəzi nümunələri......................................................................24
4. 27 sentyabr-10 noyabr 2020-ci il Vətən Müharibəsində (İkinci Qarabağ müharibəsi) azərbaycanlı əsirlərə qarşı işgəncə faktları..............................33
5. Nəticə..............................................................................................................44

*Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpası naminə aparılmış Vətən müharibəsində Azərbaycan Ordusunun hərbi qulluqçularının göstərdiyi şücaət, hərbi qulluq vəzifəsini yerinə yetirərkən nümayiş etdirdiyi mərdlik və peşəkarlıq tarixə qızıl hərflərlə həkk olunmuş zəfərin əldə edilməsinə səbəb olmuşdur. Bu müharibə, şanlı qalibiyyətlə bağlı hələ uzun müddət həm ölkə daxilində, həm beynəlxalq səviyyədə araşdırmalar, tədqiqatlar aparılacaq, KİV–də müxtəlif məqalələr dərc ediləcək, ədəbiyyat və incəsənət sahəsinin nümayəndələri xeyli bədii əsərlər yaradacaqlar. Lakin bizim ən əsas məqsədlərimizdən biri, həm döyüş meydanında, həm onun ətrafında, həm də siyasi meydanda. ümumiyyətlə bütün sahələrdə baş vermiş hadisələrin gələcəyə doğru-düzgün, obyektiv çatdırılmasını təmin etməkdir. Artıq bizim tariximizin zəfər səlnaməsinə qarşı qarayaxma, kompaniyasının başlandığının şahidi oluruq. Ayrı–ayrı siyasi, dini konyukturaya xidmət edən transmilli mərkəzlərin təşkilatçılığı ilə məqsədli şəkildə qərəzli, ədalətsiz, həyasız dezinformasiyalar yayılır, əsası olmayan, heç bir sübuta, dəlilə söykənməyən, əldəqayırma iddihamlarla Azərbaycan Respublikasına, rəşadətlı Ordumuza, ölkənin siyasi və hərbi rəhbərlyinə qarşı təbliğat aparılır. Bu böhtan kompaniyasının seqmentlərinin biri də hərbi əsirlərə, girovlara rəftarla bağlıdır. Bu məsələyə qeyri-obyektiv, qərəzli yanaşma aşkar görünür. Bu cür fəaliyyətlərin qarşısının dərhal və qətiyyətlə alınması üçün səfərbər olunmaya, daha gərgin işlərin görülməsinə ehtiyac var.*

# 1. Əsir və girovlar anlayışları. Beynəlxaql normativ sənədlər

Müharibə cinayətləri beynəlxalq cinayətlərin bir növü kimi müxtəlif zamanlarda tədqiq olunmuş və onun cəmiyyət üçün böyük təhlükə törədən elementləri təhlil olunmuşdur. Zamanla bu cinayəti planlaşdıranlar və icra edənlər beynəlxalq cinayət məsuliyyətinə cəlb olunmuş və cəzalandırılmışdır. Müharibə cinayətlərinə görə məsuliyyət həm milli məhkəmələr, həm də beynəlxalq cinayət tribunalları tərəfindən müəyyən olunmuşdur.

Hərbi əsirlərlə davranışın tarixi müharibə tarixi qədər qədimdir. İbtidai dövrlərdə və orta əsrlərdə əsirlər əsir götürənin şəxsi mülkü sayılırdısa, XVII və XVIII əsrlərdə müharibə dövlətlər arasındakı münasibət olaraq qəbul edilərkən hərbi əsirlərin vəziyyəti haqqında daha müasir düşüncə inkişaf etməyə başladı. Bu yanaşmaya əsasən əsgərlər yalnız silahlı olduqları müddətdə düşmən idilər və əsir götürənlərin yalnız müharibə əsirləri üzərində hüquqları onları döyüşə qayıtmağının qarşısını almaq üçün idi. Bu düşüncə tərzi rəsmi olaraq hərbi əsir kimi təsnif edilənlərə daha insani rəftarla nəticələndi. 1864-cü ildə ilk Cenevrə Konvensiyasından, 1899, 1907 və 1914-cü illərdə Haaqa Konfranslarına qədər beynəlxalq müharibə qaydaları və məhkumlarla rəftar üçün universal standartlar hazırlandı. 1929-cu il Cenevrə Konvensiyası məhkumlara insani davranış göstərilməsini, əsir ölkələrin tutulan bütün məhbuslar haqqında məlumat verməli və bitərəf dövlətlərin nümayəndələrinin həbsxana düşərgələrini ziyarət etməsinə icazə verməleri şərtiydi. 1949-cu il Cenevrə Konvensiyası əsirlərin əsirlikdə qorunması üçün çox genişləndirilmiş və ətraflı davranış qaydaları müəyyən etdi. Məhkumlara qarşı insani və layiqli rəftar hüququ təmin olunmalı. Müharibə əsirləri, cinayətkarlar olaraq deyil, hadisələrin qurbanları kimi qəbul edilirlər. Hərbi əsirlər müharibədə iştirak etdiyinə görə mühakimə edilə bilməz. Onların tutulması bir cəza növü deyil, yalnız münaqişədə daha çox iştirakın qarşısını almaq məqsədi daşıyır. Hərbi əməliyyatlar bitdikdən sonra təxirə salınmadan sərbəst buraxılmalı və öz ölkələrinə göndərilməlidir.

Beynəlxalq sənədlər silahlı münaqişələrdə vətəndaşların hüquqlarının qorunmasında vacib mexanizmdir. Beynəlxalq humanitar hüquq əsasən üç sənəddə ifadə edilir: 1907-ci il Quru müharibəsi qanunları və adətləri haqqında Haaqa konvensiyası, 1949-cu il 12 avqust tarixli Cenevrə konvensiyaları və 1977-ci il Beynəlxalq silahlı münaqişə qurbanlarının müdafiəsinə dair Cenevrə konvensiyalarına I əlavə protokol və insan hüquqlarına hörmət prinsipinin əks olunduğu beynəlxalq hüquq sənədləri. İnsan hüquqlarına hörmət prinsipi ilk dəfə olaraq BMT Nizamnaməsində ümumi formada təsbit olunmuş, sonralar bir sıra mühüm beynəlxalq sənədlərdə, o cümlədən 1948-ci il 10 dekabr tarixli İnsan Hüquqları Haqqında Ümumi Bəyannamədə dəqiqləşdirilmişdir.

Yuxarıda adı çəkilən beynəlxalq sənədlərlə yanaşı, insan hüquqlarına hörmətlə birbaşa bağlı olan bir çox konvensiyalar – 1907-ci il Quru müharibəsi qanunları və adətləri haqqında IV Haaqa konvensiyası, 1949-cu il 12 avqust tarixli Müharibə zamanı mülki şəxslərin müdafiəsinə dair dördüncü Cenevrə konvensiyası və 1977-ci il Beynəlxalq silahlı münaqişə qurbanlarının müdafiəsinə dair Cenevrə konvensiyalarına I əlavə protokol, 1954-cü il Silahlı münaqişə zamanı mədəni mülkiyyətin qorunması haqqında Haaqa konvensiyası, 1999-cu il ona əlavə protokol, Ətraf mühiti dəyişikliyə uğradan vasitələrdən hərbi və ya istənilən digər düşmən məqsədlərlə istifadə olunmasının qadağan edilməsi haqqında 1976-cı il 10 dekabr tarixli konvensiya,

Hədsiz zərərli sayıla bilən və ya seçimsiz nəticələrə malik ola bilən müəyyən adi silah növlərinin istifadəsinə qoyulan qadağalar və ya məhdudiyyətlər haqqında 1980-ci il konvensiyası, 1974-cü il Qadın və uşaqların fövqəladə hallarda, silahlı münaqişələr dövründə müdafiəsi haqqında bəyannamə, 1989-cu il Uşaq hüquqları haqqında konvensiya.

Beynəlxalq humanitar hüquqda mülki şəxslərə zəruri olan müdafiə və humanist rəftarın təmin edilməsi və müharibə qurbanlarının müdafiəsinə dair 1949-cu ilin avqustun 12-də dörd Cenevrə Konvensiyası qəbul edilib.

Bu konvensiyalardan biri isə hərbi əsirlərlə rəftara dair III Cenevrə Konvensiyasıdır. Sözügedən Konvensiyadan başqa, hərbi əsirlərlə rəftar rejimini müəyyən edən əsas beynəlxalq hüquqi sənədlər sırasına quru əməliyyatlarının qanunları haqqında IV Haaqa Konvensiyası və 1949-cu il Cenevrə Konvensiyalarına 1977-ci ildə qəbul edilən I və II Əlavə Protokollar da aid edilir.

Əsir - döyüş əməliyyatlarında iştirak edən hərbçinin və qeyri-hərbçinin sonrakı əməliyyatlarda iştirakına yol verməmək məqsədilə azadlığı məhdudlaşdırılan şəxsə deyilir. Sadə dillə desək, döyüş əməliyyatlarında ələ keçirilən mülki vətəndaşlar "əsir", Silahlı Qüvvələrdə xidmət edənlər isə "hərbi əsir" adlandırılır.

Düşmən tərəfindən ələ keçirilən insanlarla davranış qaydalarını, onların hansı halda "əsir" və ya "hərbi əsir" adlandırılmasına aid müddəaları araşdırmaq üçün beynəlxalq konvensiyaların tələblərinə müraciət etmək vacibdir.



**Hərbi əsrlərlə rəftar dair Cenevrə Konvensiyasının** bəzi maddələri:

Maddə 4.

Hərbi əsirlər -

A. Düşmən əlinə keçmiş, aşağıdakı kateqoriyalardan birinə mənsub olan şəxslər bu Konvensiyanın mənasına görə hərbi əsir sayılırlar:

1. Münaqişə tərəfinin silahlı qüvvələrinin üzvlərinə, eləcə də silahlı qüvvələrin tərkibinə daxil olan qeyri-nizami birləşmələrin və ya digər könüllü dəstələrinin üzvlərinə.

2. Münaqişənin tərəfinə mənsub olan, öz ərazisində və ya ondan kənarda, hətta bu ərazi işğal edilsə belə, fəaliyyət göstərən mütəşəkkil müqavimət hərəkatlarının üzvləri də daxil olmaqla, digər qeyri-nizami birləşmələrin və könüllü dəstələrinin üzvlərinə, bu

şərtlə ki, həmin qeyri-nizami birləşmələr və könüllü dəstələri, o cümlədən mütəşəkkil müqavimət hərəkatları aşağıdakı şərtlərə uyğun gəlsinlər:
a. tabeliyində olanlara görə məsuliyyət daşıyan başçısı vardır;
b. uzaqdan seçilən müəyyən fərqləndirici nişanı vardır;
c. açıq şəkildə silah gəzdirirlər;
d. öz əməliyyatlarını müharibə qanunlarına və adətlərinə uyğun aparırlar.

Cenevrə Konvensiyasının 3-cü maddəsi Beynəlxalq səviyyədə olmayan silahlı münaqişələr baş verdikdə hər iki tərəfin aşağıdakı qaydaları tətbiq etmək məcburiyyətində olduğunu əks etdirir:

Hərbi əməliyyatlarda birbaşa iştirak etməyən şəxslərə, həmçinin Silahlı Qüvvələrdən olan, lakin silahı yerə qoyaraq hərbi əməliyyatlarda xəstəliyi, yaralanması, saxlanılması və ya istənilən digər səbəbdən iştirakını dayandıranlara istənilən halda insani münasibət göstərilməlidir.

**1. Dərisinin rənginə, dininə, inancına, mənşəyinə, cinsinə, əmlak vəziyyətinə və ya hər hansı bir oxşar meyarlara görə yuxarıda göstərilən şəxslərə münasibətdə aşağıdakı hərəkətlər hər zaman və hər yerdə qadağan edilir:**

a) insan həyatına qəsd və fiziki toxunulmazlığın pozulması, xüsusilə hər cür qətl, şikəstetmə, qəddarlıq, işgəncə və s;
b) girov götürmə;
c) insan ləyaqətinə qarşı hücum, xüsusilə təhqiramiz və alçaldıcı davranış;
d) sivil millətlər tərəfindən tanınan və zəmanət verilən məhkəmənin qüvvəyə minən qərarı olmadan kimisə məhkum etmək və ona cəzanı tətbiq etmək.
2. Yaralılar və xəstələr toplanmalı, onlara kömək göstərilməlidir. Beynəlxalq Qızıl Xaç Komitəsi kimi tərəfsiz humanitar təşkilatlar münaqişə tərəflərinə öz təkliflərini təqdim edə bilər.

3) Bu maddə heç bir şəkildə tibbi-sanitar və ruhani statusu olan personala aid edilə bilməz.

**Maddə 5. Bu Konvensiya 4-cü maddədə göstərilən şəxslərə düşmən hakimiyyətinin əlinə düşdükləri andan etibarən, onların buraxılması və ya geri qaytarılmasına qədər tətbiq edilir.**

Hərbi əməliyyatlarda iştirak edən və rəqib əlinə düşən şəxslərin hansı kateqoriyaya aid edilməsinə dair şübhələr yarandıqda, bu şəxslərin statusu səlahiyyətli məhkəmə tərəfindən təyin olunana qədər onlar bu Konvensiya ilə qorunur.

Sadalanan şərtlər mövcud olduqdan və ya təsdiqləndikdən sonra ələ keçən şəxslərə qarşı hərbi əsir rejimininin tətbiqi reallaşa bilər.

Yekun olaraq hərbi əsirin - tərkisilah edilən düşmən olduğunu, onların hərbi əsirlər ilə rəftara dair Konvensiyanın tələbinə görə dövlətin müvəqqəti hakimiyyəti altında olmalı və həmin dövlətin onların taleyinə görə tam məsuliyyət daşımalı olduğunu qeyd etmək vacibdir.



## 2. Ermənistan-Azərbaycan münaqişəsinin Birinci Qarabağ müharibəsində azərbaycanlı əsirlərə qarşı pis rəftar və işgəncələrlə bağlı məlumatlar

Ermənistan adları çəkilən bu konvensiyaların əksəriyyətinin iştirakçısı olsa da, daim onların şərtlərini pozmuş və pozmaqdadır.

Beynəlxalq hüquqa görə, soyqırımı cinayəti insanlıq əleyhinə yönələn ən ağır cinayət hesab edilir. Ermənistan silahlı qüvvələri Azərbaycan torpaqlarını işğal edərkən dəfələrlə azərbaycanlılara qarşı soyqırımlar törətmiş, əsir və girovlara qarşı pis rəftar göstərmiş, onları işgənlərə məruz qoymuşdur. 1948-ci il 9 dekabr tarixli Soyqırımı cinayətinin qarşısının alınması və ona görə cəzalandırma haqqında konvensiyada soyqırımı cinayəti təsbit edilir. Ermənistan həmin konvensiyada təsbit edilən soyqırımı cinayətini təşkil edən bütün əməlləri azərbaycanlılara qarşı tətbiq etmişdir. Bütün dövr ərzində Ermənistan azərbaycanlı hərbi əsirlərə qarşı törətdiyi vəhşilik, qeyri-insanı əməllər barədə yüzlərlə təkzib olunmaz sübutlar toplanıb, beynəlxaql qurumlara təqdim edilib, həmçinin bu əməllər KİV ilə ictimaiyyətin diqqətinə çatdırılmışdır.

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının 01.12.2020-ci il tarixinə olan məlumatı

**Əsir, girov və itkin düşmüşlər**

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində itkin düşmüş, əsir-girov götürülmüş, həmçinin azad edilmiş şəxslərlə bağlı statistik məlumatlar.

1. *Dövlət Komissiyasının qeydiyyatından keçən itkin düşmüş şəxslər – 3890 nəfər*

a) hərbçilər - 3171 nəfər
b) mülki şəxslər - 719 nəfər (71 uşaq, 267 qadın, 326 qoca)
a) kişilər - 3623 nəfər
b) qadınlar - 267 nəfər

*Qeydiyyata alınmış itkinlərdən əsir-girov götürülməsi barədə məlumatlar daxil olmuş şəxslər - 872 nəfər*

a) hərbçilər - 605 nəfər
b) mülki şəxslər - 267 nəfər (29 uşaq, 98 qadın, 112 qoca)
a) kişilər - 774 nəfər
b) qadınlar - 98 nəfər

*2. Əsir və girovluqdan azad edilmiş şəxslər - 1480 nəfər*

a) hərbçilər - 378 nəfər
b) mülki şəxslər - 1102 nəfər (224 uşaq, 357 qadın, 225 qoca)
a) kişilər - 1123 nəfər
b) qadınlar - 357 nəfər









Azərbaycan tərəfinin əldə etdiyi məlumatlar göstərir ki, bu siyahıda olan insanların əksəriyyəti erməni əsirliyində ya işgəncə, ya da xəstəlikdən həlak olub. Bu günə qədər siyahıda olanların bəzilərinin Ermənistanda və işğal olunan ərazilərdə ağır fiziki işlərdə qul kimi istifadə olunduğu haqqında faktlar mövcuddur.

Ermənistandan göndərilən silahlı dəstələr tərəfindən 1991-ci ilin iyun-dekabr aylarında Qarabağın dağlıq hissəsindəki 30-dan çox yaşayış məntəqəsi, o cümlədən Meşəli, Cəmilli, Tuğ, İmarət-Qərvənd, Sırxavənd, Umudlu, Kərkicahan və s. strateji əhəmiyyətli yaşayış məntəqələri yandırıldı, yüzlərlə azərbaycanlı qətlə yetirildi, əsir götürüldü, yaralandı. 1992-ci ilin yanvar-fevral aylarında Qaradağlı, Qaybalı, Malıbəyli, Aşağı Quşçular, Yuxarı Quşçular kəndləri işğal edildi. Fevralın 25-dən 26-na keçən gecə ermənilər Xocalını yerlə yeksan etdilər. Xocalıya hücumda 366-cı alayın milliyyətcə erməni olan zabiti mayor Ohanyan Seyran Muşeqoviçin komandanlığı altında olmuş 2-ci taboru, Yevgeni Nabokixinin komandanlığı altında 3-cü taboru, 1-ci taborun qərargah rəisi Çitçyan Valeriy İsayeviç və alayda xidmət edən 50-dən artıq erməni zabit və giziri iştirak etmişdi.

Xocalının işğalı zamanı azərbaycanlı soyqırımında 613 nəfər vəhşicəsinə işgəncələrlə qətlə yetirildi, onlardan 63 nəfəri azyaşlı uşaqlar, 106 nəfəri müxtəlif yaş hədlərində olan qadınlar, 70 nəfəri qoca idi. 487 nəfər şikəst edildi. Onlardan 76-sı uşaq idi. 1275 nəfər əsir alındı, 8 ailə məhv edildi, şəhər yandırıldı, 25 uşaq hər iki valideynini, 130 uşaq bir valideynini itirdi. 2016-cı il 1 oktyabr tarixli məlumata görə, 186 nəfər itkin düşmüşdü, onlardan 31-i uşaq (11 qız), 59-u qadın, 33-ü qoca (20 qadın) idi. İtkin düşmüş həmin 186 nəfərdən 95 nəfərinin ermənilər tərəfindən əsir və girov götürülməsi barədə şahid ifadələri vardır. Həmin 95 nəfərin arasında 12 uşaq (2 qız), 23 qadın, 11 qoca (7 qadın) vardır.

Xocalıda insanlar xüsusi qəddarlıqla qətlə yetirildi. Rusiyanın "Memorial" hüquq-müdafiə mərkəzinin məlumatına görə, diri adamın baş dərisinin soyulması faktı qeydə alınmışdır.

Parisdə çıxan "Le Monde" qəzeti 1992-ci il 14 mart tarixində yazırdı: "...Ağdamda olan xarici jurnalistlər Xocalıda öldürülmüş uşaq və qadınlar arasında üçünün baş dərisinin soyulduğunu, dırnaqlarının qopardıldığını görmüşlər. Bunlar Azərbaycan təbliğatı deyil, reallıqdır...".

Moskvada çıxan "İzvestiya" qəzeti, Parisdə çıxan "Krua L`Evoneman" jurnalı, Londonda çıxan "Tayms" qəzeti, "Sandi Tayms" qəzeti, "Feyneşnl Tayms" qəzeti, Parisdə çıxan "Valer Aktyuel" jurnalı Xocalıda ermənilərin törətdikləri qəddar qətllərdən bəhs edirdilər.

Bütün dünyanın gözü qarşısında baş verən bu soyqırımının əsl mahiyyəti yalnız Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə yenidən qayıdışından sonra açılmış, 1994-cü ilin fevralında Azərbaycan Respublikası Milli Məclisi Xocalı soyqırımına siyasi-hüquqi qiymət vermişdir.

Bəşəriyyətə böyük itkilər verən soyqırımlarının qarşısını almaq üçün beynəlxalq əməkdaşlığın zəruriliyini nəzərə alan BMT Baş Məclisi 1948-ci il 9 dekabr tarixdə Soyqırımı cinayətinin qarşısının alınması və ona görə cəzalandırma haqqında konvensiya qəbul etdi. Baş Məclisin 1973-cü il 3 dekabr tarixli qətnaməsində hərbi cinayətlər, bəşəriyyətə qarşı cinayətlərdə müqəssir olan şəxslərin aşkar edilməsinə, cəzalandırılmasına dair beynəlxalq əməkdaşlığın prinsipləri göstərildi. Qətnamənin 1-ci bəndində yazılır ki, hərbi cinayətlər və bəşəriyyətə qarşı cinayətlər nə vaxt və harada törədilməsindən asılı olmayaraq araşdırılmalı, belə cinayətləri törətmələri barədə dəlillər olan şəxslər axtarılmalı, müqəssir sayıldıqda cəzalandırılmalıdırlar. 5-ci bəndə görə, belə cinayətlər törədən şəxslər həmin cinayətləri törətdikləri ölkədə cəzalandırılmalıdırlar. Buna müvafiq olaraq həmin şəxslərin təhvil verilməsində dövlətlər əməkdaşlıq edirlər.

Təəssüf ki,30 ildən artıq davam edən Ermənistan Azərbaycan münaqişəsində Ermənistan deyilən sadalan bütün normaları, konvensiyaların şərtlərini kobut şəkildə pozaraq, hərbi cinayətlə törətmiş, vandalizmə yol vermiş, əsir, girov və itkin düşmüş şəxslərə qarşı vəhşilik etmiş, qətllər törətmişdir. Dörd minə yaxın azərbaycanlı əsir və girovların əksəriyyəti erməni əsirliyində öldürülmüş, işgəncələrə, xəstəliklərə dözməyərək intihar etmiş, qalanları gizlədilərək Ermənistan və işğal edilmiş Azərbaycan ərazilərində ağır fiziki işlərdə işlədilirlər. 1949-cu il 12 avqust tarixli Cenevrə konvensiyalarına əsasən, hərbi əsirlər ədavəti olmayan hökumətdə saxlanılmalıdırlar, ayrı-ayrı şəxslərin evində, yaxud onları əsir götürən hərbi hissələrdə saxlanılmamalıdırlar, onlarla həmişə humanist rəftar olunmalı, heç bir hərbi əsir fiziki işgəncəyə məruz qalmamalı, eksperiment obyekti olmamalıdırlar. Ermənilər beynəlxalq hüquq normalarını pozaraq hərbi əsirlərlə bərabər, dinc əhaliyə də işgəncələr vermiş, onları vəhşicəsinə döymüş, təhqir etmiş, alqı-satqı obyektinə çevirmiş, əksər halda əsirlərin sahibindən külli miqdarda pul aldıqdan sonra onları geri qaytarmamış, işgəncələrlə öldürmüş, yaxud əsir və girovların daxili orqanlarını satmış, onların üzərində eksperiment aparmışlar.

Rusiyanın və ABŞ-ın hüquq müdafiə qurumları, ABŞ-ın "New York Times" qəzeti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin gedişatında insan hüquqlarının pozulduğunu, başları kəsilmiş, başlarının dərisi soyulmuş meyitlərin, bir nəfərin diri-diri başının dərisinin soyulduğunun şahidi olduğunu yazırlar.

1994-cü il mayın 12-də bağlanmış atəşkəs barədə sazişə müvafiq olaraq Ermənistan Azərbaycan torpaqlarına hücumu dayandırmalı idi. Lakin Ermənistan nəinki atəşkəs sazişinə əməl etmir, həmçinin insan hüquqlarını, o cümlədən hərbi əsir və girovların hüquqlarını kobudcasına pozmaqda davam edir. Atəşkəsə məhəl qoymayan Ermənistan silahlı qüvvələri son zamanlar da dinc sakinləri girov götürürlər. 2014-cü il iyulun 11-də Rusiya vətəndaşı Dilqəm Əsgərov və Azərbaycan vətəndaşı Şahbaz Quliyev Kəlbəcər rayonu Şaplar kəndində öz ata-baba yurdlarını, yaxınlarının məzarlarını ziyarət etmək istəyərkən Ermənistan silahlı qüvvələri tərəfindən girov götürülmüşlər. Azərbaycan vətəndaşı Həsən Həsənov isə öldürülmüşdür. İşğal altında olan Dağlıq Qarabağda qanunsuz məhkəmə qurulmuş, məhkəmənin qərarı ilə D.Əsgərov ömürlük, Ş.Quliyev isə 22 il müddətinə azadlıqdan məhrum edilmişdir. Bu gün də Ermənistan tərəfindən dinc sakinlər gülləbaran edilir, minalanmış ərazilərdə

insanlar həlak olur, yaxud şikəst edilir. Son zamanlar isə Ermənistan silahlı qüvvələri azyaşlı uşaqları hədəfə çevirmiş və vəhşicəsinə qətlə yetirmişlər.

İnsan hüquqlarının müdafiəsi prinsipinə riayət edilməsi beynəlxalq münaqişələrin nizama salınması prosesinə təsir edən əsas amillərdən biridir. Beynəlxalq hüquq sənədlərinin əksəriyyətinə "qoşulan" Ermənistan onların şərtlərini kobudcasına pozur. Ermənistanın Azərbaycana qarşı törətdiyi cinayətlərin hüquqi mühakiməsinin həyata keçirilməsi məqsədilə Xüsusi Tribunalın yaradılması, cinayətkarların cəzalandırılması vacibdir. Beynəlxalq hüquq normalarının tətbiq edilməsi, insan hüquqlarının müdafiəsi BMT-nin Təhlükəsizlik Şurası, Beynəlxalq Məhkəmə kimi əsas orqanları, ixtisaslaşmış qurumlar, o cümlədən İnsan hüquqları barədə Şura və digər aidiyyəti olan qurumlarla əməkdaşlıq istiqamətində həyata keçirilə bilər.

## Ermənistan Respublikası tərəfindən Azərbaycanlı girovlara və əsirlərə qarşı törədilmiş cinayətlər.

### *Quqark qırğını*

1988-ci ilin noyabr ayında Ermənistanın Quqark rayonunda ermənilər tərəfindən 15-i yandırılaraq 21 azərbaycanlı öldürülmüşdür.

### *Xocalı soyqırımı*

1992-ci il fevral ayının 25-26-da erməni silahlı birləşmələri Xankəndidə yerləşən Rusiyaya məxsus 366-cı alayın köməyi ilə azərbaycanlılar yaşayan Xocalı şəhərinə hücum edərək dinc əhaliyə qarşı xüsusi qəddarlıqla müşaiyət olunan genosid aktını həyata keçirdilər. Bu faciə nəticəsində 613 dinc sakin qətlə yetirilmiş, 487 nəfər yaralanmış, 1275 nəfər isə əsir götürülmüşdür.

Onlardan bir çoxu əsirlikdən qayıtmamış və sonrakı taleyi barədə hər hansı məlumat yoxdur. 366-cı alay Xankəndidən çıxarıldıqdan sonra bu hərbi hissəyə məxsus olan silahlı texnikanın mühüm hissəsi erməni separatçılarına verildi.

### *Ağdaban soyqırımı*

1992-ci ilin aprel ayının 8-də Erməni işğalçıları Kəlbəcərin Ağdaban kəndinə hücum edərək 67 nəfəri qətl etmiş,17 kənd sakini diri-diri yandırmışdır.

### *Qarabağ müharibəsi dövründə əsir düşmüş və girov götürülmüş azərbaycanlılar*

Azərbaycan tərəfində olan təkzibolunmaz faktlar göstərir ki, ən azı minə yaxın vətəndaşımız ermənilər tərəfindən əsir, yaxud girov götürülüb, lakin bu faktlar beynəlxalq təşkilatlar, o cümlədən BQXK-dan gizlədilib. Həmin şəxslərin siyahısı erməni əsirliyindən qayıtmış vətəndaşlarımızın və digər mənbələrin şahid ifadələri əsasında tərtib edilib. Almaniya, Rusiya və Gürcüstanın hüquq müdafiəçilərindən ibarət əsir və girov götürülmüş şəxslərin azad edilməsi, itkin düşmüş şəxslərin axtarışı üzrə beynəlxalq işçi qrupunun üzvləri, eləcə də Beynəlxalq Qırmızı Xaç Komitəsi bu şəxslərdən bir qisminin həqiqətən də əsir götürülməsi barədə məlumatları təsdiq edir. Lakin sözügedən vətəndaşlarımızın taleyi bu günədək naməlumdur.

### *Taleyi naməlum olan əsirlər və girovlar*

Hüseynova Mehriban Allahverdi qızı: Xocalı şəhərinin işğalı zamanı 3 azyaşlı uşağı ilə birlikdə girov götürülüb. Əsirlikdən azad edilmiş Məmmədov Mayıl Məhəmmədəli oğlunun ifadəsinə görə, o, Mehribanı uşaqları ilə birlikdə Yerevan şəhərində istintaq

təcridxanasında görüb. Lakin sonradan Şuşa şəhərinə aparılan Mayılın onlardan heç bir xəbəri olmayıb. Erməni tərəfi Mehriban və onun uşaqlarının girov götürüldüyünü danmaqda, onların sonrakı taleyinə dair faktları bu günədək gizlətməkdədir.

Hüseynova Tamara Saleh qızı: 26.07.1992-ci il tarixdə Tovuz rayonunun Əlibəyli kəndində ermənilər tərəfindən girov götürülüb. Qardaşı Akif Hüseynov bacısının axtarışı ilə əlaqədar bir neçə dəfə erməni tərəfi ilə apardığı danışıqlar zamanı Tamara Hüseynovanın Berd rayonunun Paravakar kəndində, itkin düşmüş Alaverdiyan Mqerin ailəsində saxlanıldığı bildirilib. 06.11.1992-ci il tarixdə erməni tərəfindən Alaverdiyan Şamir Alekseyeviç adlı şəxs Akif Hüseynova teleqram vuraraq bacısı Tamaranın girov saxlanıldığını təsdiq edib. Tamara Hüseynovanın ermənilər tərəfindən girov götürülməsi Əsir və girovların azad edilməsi, itkin düşmüş şəxslərin axtarışı üzrə beynəlxalq işçi qrupu tərəfindən də təsdiqlənib. Lakin Tamara Hüseynovanın da girovluqdakı sonrakı taleyi bu günədək naməlumdur.

Rəhimov Rəhim Əbdülkərim oğlu: 24.06.1993-cü il tarixdə Ağdərə rayonunda əsir götürülüb. 16.07.1993-cü ildə Rusiyadan (Orenburq şəhəri, Volqoqradskaya küçəsi, ev 40/2, mən. 69) ailəsinə vurulmuş teleqramda R.Rəhimovun Ağdərə rayonunun Vaqauz kəndində Ağacanyan Qrelin evində saxlanıldığı bildirilib. 1993-cü ildə ailəsi R.Rəhimovdan BQXK vasitəsi ilə məktub alıb. Bu məktubda R.Rəhimov itkin düşmüş Ağacanyan Joranın tapılıb onunla dəyişdirilməsini xahiş edib. Erməni tərəfi R.Rəhimovun da sonrakı taleyi ilə bağlı faktları bu günədək gizlətməkdədir.

Azərbaycan tərəfinə daxil olan məlumatlar göstərir ki, əsir və girov götürülməsinə dair məlumat olan, lakin sonrakı taleyi naməlum qalan şəxslərin siyahısında böyük əksəriyyət erməni əsirliyində öldürülüb, yaxud işgəncə və xəstəliklərdən vəfat edib, az bir hissəsi isə indi də gizlədilərək ağır fiziki işlərdə qul kimi istifadə olunur.



***Taleyi məlum olmayan girovlar: Əliyev Tural Nadir oğlu, Allahverdiyev Mahir Novruz oğlu, Quliyeva Şahnaz Məmməd qızı***

1988-2003-cü illərdə 1335 Azərbaycan vətəndaşı erməni əsirliyindən azad edilib. Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında olan məlumatlara görə, əsirlikdən qayıtmış vətəndaşlar arasında şikəstlik, mənəvi iztirabların təsirindən ruhi xəstəlik, saxlanma şəraitinin elementar tələblərə cavab verməməsi səbəbindən vərəm və s. xəstəliklər qeydə alınıb. Bir sözlə, erməni əsir və girovluğu bu şəxslərin səhhətində, psixikasında ömürlük iz qoyub.

Komissiyadakı materiallar sübut edir ki, yüzlərlə Azərbaycan vətəndaşı, o cümlədən, uşaq, qadın və qocalar erməni əsir və girovluğunda dözülməz işgəncələrin qurbanı

olub. Əsir və girovlara müxtəlif dəhşətli işgəncələr verilib – onlar vəhşicəsinə döyülüb, qəsdən şikəst vəziyyətinə salınıb, sinələrinə qızdırılmış xaç nişanları və damğa basılıb, dırnaqları və dişləri çıxarılıb, yaralarına duz basılıb, ölənə qədər rezin və dəmir dəyənəklərlə döyülüb, damarlarına benzin yeridilib, bədən hissələri kəsilib özlərinə yedirilib, üzərlərində tibbi eksperiment aparılıb:



***Bu günə qədər tapılmayan, heç bir məlumat olmayan azərbaycanlı girovlar: Hüseynov Rəcəf Elxan oğlu, Hüseynova Nəsibə Hüseyn qızı, Cəfərov Samir Tacir oğlu***

Eyni zamanda, əsirlikdə saxlandığı müddətdə yüzlərlə vətəndaşımız ermənilər tərəfindən qətlə yetirilmiş, işgəncələrin təsirindən ölmüş, amansız rəftara məruz qalmaqla və ləyaqəti mütəmadi alçaldılmaqla özünüöldürmə dərəcəsinə çatdırılmışdır. Erməni əsirliyində törədilmiş cinayətlərə dair faktlar Dövlət Komissiyasına bu gün daxil olmaqdadır:

1993-cü ilin aprel ayının 1-də Ermənistan silahlı birləşmələrinin Azərbaycanın Kəlbəcər rayonuna genişmiqyaslı hücumu zamanı Ermənistanın Vardenis rayonundakı qərargah radiostansiyasından ("QSM-7") Kəlbəcər döyüş bölgəsindəki baş radiostansiyaya ("Uraqan") bölgədəki bütün səyyar radiostansiyalara çatdırmaq üçün təcili əmr verilmişdir. Əmrdə əsir və girov götürülmüş Azərbaycan vətəndaşlarını, o cümlədən qocaları, qadınları və uşaqları təcili məhv edib basdırmaq tələb olunurdu. Tələsikliyə səbəb azərbaycanlılar barəsində törətdikləri vəhşiliklərin izlərinin həmin vaxt döyüş bölgəsinə gələn beynəlxalq nümayəndə heyətindən, o cümlədən jurnalistlərdən gizlətmək olub. Erməni hərbi birləşmələri komandirlərinin efirdəki bu radiodanışığının mətni Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyinin radioəkskəşfiyyat xidməti tərəfindən 1993-cü ilin aprel ayının 6-7-də lentə alınmışdır.

16 fevral 1994-cü ildə Ermənistan Respublikası Xarici İşlər Nazirliyi guya qaçmağa cəhd edərkən atışma zamanı 8 azərbaycanlı hərbi əsirin öldürüldüyünü bəyan etmişdir. Bakıda meyidlər üzərində keçirilən məhkəmə tibbi ekspertizası zamanı Beynəlxalq Hüquq və Sosial Təbabət Akademiyası Rəyasət Heyətinin və Böyük Britaniyanın "Həkimlər insan hüquqları uğrunda" təşkilatının üzvü, professor Derek Paunder azərbaycanlı hərbi əsirlərin eyni silahdan (tapança) gicgah nahiyəsinə yaxın məsafədən açılan atəş nəticəsində qətlə yetirildiyini bildirmiş və əsirlərin guya "qaçmağa cəhd edərkən" öldürülməsi fikrini rədd etmişdir.

Kəlbəcər şəhəri işğal olunarkən 20 yaşlı Səmayə Kərimova 2 yaşlı uşağı – Kərimova Nurlanə ilə birlikdə girov götürülmüşdür. Girovluqda olduğu müddətdə digər əsir və girovların, eləcə də qolundan yaralı vəziyyətdə girov götürülmüş körpə uşağı Nurlanənin

üzləşdiyi əzablara, həmçinin özünün məruz qaldığı işgəncələrə dözməyən Səmayə 15 may 1993-cü il tarixdə özünə qəsd etmişdir.

Əmirova Xəzəngül Təvəkkül qızı: Xocalı işğal olunan zaman erməni silahlıları onun ailəsini bütünlüklə girov götürmüşdür. Ermənilər Xəzəngülün anası Rayanı, 7 yaşlı bacısı Yeganəni və xalası Göyçəni güllələyib, atası Əmirov Təvəkkülü isə üstünə benzin tökərək yandırmışlar.

İlham Nəsirov: 1992-ci il iyulun 27-də Ağdərə uğrunda gedən döyüşlərdə başından, boynundan və çiynindən yaralı vəziyyətdə ermənilər tərəfindən əsir götürülmüşdür. Avqust ayının 8-də Xankəndindən İlhamın ailəsinə zəng edilmiş və onun Yerevanda Arakelyan familiyalı bir erməninin evində saxlanıldığı bildirilmişdir. Ailə İlham Nəsirovun azad edilməsi üçün itkin düşmüş Şaqen Arakelyanın tapılıb qarşı tərəfə verilməsi şərtini irəli sürmüşdür. Bir ilə yaxın ac-susuz saxlanılan və distrofiya həddinə çatdırılan İ.Nəsirov sonradan Yerevan qospitalına yerləşdirilsə də, artıq ona kömək etmək mümkün olmamışdır. Qospitalın rəisi Ş.Arakelyanın 24 noyabr 1993-cü il tarixli, 06/134 saylı məktubunda da göstərdiyinə görə, İ.Nəsirov noyabrın 23-də kəskin kaxeksiya diaqnozundan vəfat etmişdir.

Heydər Heydərov, Şuşa həbsxanasında saxlanıldığı müddətdə məruz qaldığı işgəncələrin və mütəmadi döyülmələrin təsirindən vəfat etmişdir.

Erməni əsirliyində ölmüş 20 yaşlı Fərhad Rəhman oğlu Atakişiyevin meyidinin qalıqlarının məhkəmə-tibbi ekspertizası sübut etmişdir ki, o, müntəzəm döyülmələr və ağır işgəncələr nəticəsində qətlə yetirilmişdir.

Erməni əsirliyində olan Xocalı şəhər sakini Faiq Şahmalı oğlu Əliməmmədov Gəncə şəhərinin adını "Kirovabad" demədiyinə görə, erməni hərbçisi tərəfindən güllələnmişdir. Bu barədə əsirlikdən azad edilmiş Zülfi İbrahim oğlu Məmmədov, Məmməd Cümşüd oğlu Məmmədov və digərləri şahidlik edir.

Bu, əsir və girov olmuş vətəndaşlarımıza qarşı törədilmiş cinayət faktlarının bir qismidir. Amma tək elə bu faktlar əsir və girov olmuş vətəndaşlarımıza qarşı hansı vəhşiliklərin, hansı cinayətlərin edildiyi barədə tam təsəvvür yaradır. Ümumiyyətlə isə, Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi və Dövlət Komissiyası tərəfindən həyata keçirilən tədbirlər nəticəsində Ermənistanda və işğal olunmuş Azərbaycan ərazilərində azərbaycanlı əsir və girovlara qarşı törədilmiş vəhşiliklər barədə çoxsaylı məlumatlar, şəhadətlər və prosessual sübutlar əldə edilmişdir. Artıq 2002-ci ildə Dövlət Komissiyasının qərarı ilə azərbaycanlı əsir və girovlara qarşı cinayət törətmiş ermənilərlə bağlı faktlar üzrə toplanan materiallar hüquqi qiymət verilməsi üçün Azərbaycan Respublikası Baş Prokurorluğuna göndərilmişdir. Başlanılmış cinayət işinin ibtidai istintaqı göstərmişdir ki, Azərbaycanın işğal olunmuş ərazilərində, xüsusilə Şuşa həbsxanasında, Xankəndi müvəqqəti saxlama təcridxanasında, hərbi hissələrdə, polis şöbələrində və digər yerlərdə ermənilərin qanunsuz silahlı birləşmələrinin üzvləri, həbsxana və təcridxana işçiləri qulluq vəzifələrini yerinə yetirərkən əsir düşmüş hərbçilər və beynəlxalq humanitar hüquqla müdafiə olunan mülki şəxslərlə amansız rəftar edilib, onlar öldürülüb, yaxud özünüöldürmə dərəcəsinə çatdırılıb, zorlanıb, ləyaqətləri mütəmadi alçaldılıb və digər işgəncələrə məruz qalıb. İstintaq prosesində azərbaycanlı əsir və girovların kütləvi şəkildə öldürülməsi, işgəncələr verilməsinin məhz Ermənistanın silahlı birləşmələrinin hərbi qulluqçuları və Dağlıq Qarabağdakı separatçı rejimin liderləri tərəfindən təşkil edildiyi və istiqamətləndirildiyi bir daha təsdiqini tapmışdır.

**Əsirlikdə qətlə yetirilənlər**

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında toplanmış faktlar Ermənistan Respublikasının əsirlikdə olan Azərbaycan vətəndaşlarına qarşı münasibətdə beynəlxalq hüquq normalarını tapdaladığını, o cümlədən "Müharibə qurbanlarının müdafiəsinə dair" 1949-cu il tarixli Cenevrə Konvensiyalarının həyata və ya şəxsiyyətə qəsd etmək, hər hansı şəraitdə öldürmək, şikəst etmək, qəddarcasına rəftar etmək və ya işgəncə vermək,insan ləyaqətinə toxunmaq kimi tələblərini kobud surətdə pozduğunu sübut edir.

Ermənistanın Azərbaycana hərbi təcavüzü zamanı dinc əhalinin kütləvi şəkildə öldürülməsi, Ermənistan Respubilkasında və Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ ərazisində əsirlikdə saxlanılmış Azərbaycan vətəndaşlarının dəhşətli işgəncələr və mənəvi əzablara məruz qalması, amansız rəftar və ləyaqəti mütəmadi alçaltmaqla özünüöldürmə dərəcəsinə çatdırılması, soyuqqanlılıqla qətlə yetirilməsi, yaxud verilmiş işgəncələr nəticəsində vəfat etməsi söylədiklərimizə əyani sübutdur. Aşağıda bu faktların bir qismi göstərilir:

Erməni silahlı birləşmələri Xocavənd rayonunun işğalı zamanı (17.02.1992) Qaradağlı kəndindən girov götürdükləri 117 nəfər kənd sakinindən 80-ə yaxınını yerindəcə güllələmişlər. Bu barədə kənd sakinləri Seyyur Xanlar oğlu Nağıyev, Şahruz Əmirxan oğlu Əliyev və digərləri şahidlik edirlər.

Xocavənd rayonu Qaradağlı kənd sakini Həqiqət Yusif qızı Hüseynova ermənilərin 1992-ci ilin fevralında 10 nəfər həmkəndlisinin diri-diri yandırmalarının şahidi olmuşdur.

1993-cü ilin aprel ayının 1-də Ermənistan silahlı birləşmələriinin Azərbaycanın Kəlbəcər rayonuna genişmiqyaslı hücumu zamanı Ermənistanın Vardenis rayonundakı qərargah radiostansiyasından ("QSM-7") Kəlbəcər döyüş bölgəsindəki baş radiostansiyaya ("Uraqan") bölgədəki bütün səyyar radiostansiyalara çatdırmaq üçün təcili əmr verilmişdir. Əmrdə əsir və girov götürülmüş Azərbaycan vətəndaşlarını, o cümlədən qocaları, qadınları və uşaqları təcili məhv edib basdırmaq tələb olunurdu. Tələsikliyə səbəb azərbaycanlılar barəsində törətdikləri vəhşiliklərin izlərinin həmin vaxt döyüş bölgəsinə gələn beynəlxalq nümayəndə heyətindən, o cümlədən jurnalistlərdən gizlətmək olmuşdur. Erməni hərbi birləşmələri komandirlərinin efirdəki bu radiodanışığının mətni Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin radioəkskəşfiyyat xidməti tərəfindən 1993-cü ilin aprel ayının 6-7-də lentə alınmışdır.

Kəlbəcər rayonunun işğalı zamanı Başlıbel kəndinin 15 dinc sakini ermənilər tərəfindən yerindəcə qətlə yetirilmişdir. Bunların arasında Məhəmməd Əmralıyev, Surxay Əmralıyev, Çingiz Əmralıyev, Aygün Əmralıyeva, Büsat Əhmədova və Çiçək Həsənova də olmuşdur. Bu barədə Xasay Məhəmməd oğlu Əmralıyev və Binnət Abduləli oğlu Əhmədov şahidlik edirlər.

İmarət Məmişovanın ifadəsinə görə, o Kəlbəcər rayonunun işğalı zamanı iki az-yaşlı uşağı ilə girov götürülmüşdür. İmarət Məmişovanın gözləri qarşısında ermənilər səkkiz mülki şəxsi, o cümlədən, onun səkkiz yaşlı oğlu Talehi güllələmiş və meyidləri yandırmışlar. Bundan sonra ermənilər onun özünü, 10 yaşlı oğlu Yadigarı, digər qadın, uşaq və qocaları Xankəndinə apararaq dəhşətli işgəncələrə məruz qoymuşlar.

Erməni girovluğundan 1994-cü ildə azad edilmiş Əhmədovlar ailəsinin şəhadətinə görə, 17 avqust 1993-cü il tarixdə ermənilər Füzuli rayonu Qacar kəndinin 25-dək dinc sakinini onların gözləri qarşısında güllələmişlər.

Erməni girovluğunda olmuş Həsən Məcid oğlu Hüseynov 1993-cü ildə Horadiz-Füzuli yolunda 40-dək dinc əhalinin ermənilər tərəfindən öldürüldüyünü bildirir.

16 fevral 1994-cü ildə Ermənistan Respublikası Xarici İşlər Nazirliyi guya qaçmağa cəhd edərkən atışma zamanı 8 azərbaycanlı hərbi əsirin öldürüldüyünü bəyan etmişdir.

Bakıda meyidlər üzərində keçirilən məhkəmə tibbi ekspertizası zamanı Beynəlxalq Hüquq və Sosial Təbabət Akademiyası Rəyasət Heyətinin və Böyük Britaniyanın "Həkimlər insan hüquqları uğrunda" təşkilatının üzvü, professor Derek Paunder azərbaycanlı hərbi əsirlərin eyni silahdan (tapança) gicgah nahiyəsinə yaxın məsafədən açılan atəş nəticəsində qətlə yetirildiyini bildirmiş və əsirlərin guya "qaçmağa cəhd edərkən" öldürülməsi fikrini rədd etmişdir.

Girovluqdan qayıtmış Niyaz Balay oğlu Zeynalov bildirir ki, ermənilər girov götürdükləri, Şuşa rayonu Quşçular kənd sakinləri 1910-cu il təvəllüdlü Səriyyə Tağı qızı Zeynalovanı, 1920-ci il təvəllüdlü Yeganə Dadaş qızı Mədətovanı və Mövsüm Əbdülrəhim oğlu Əhmədovu 11 fevral 1992-ci il tarixdə diri-diri yandıraraq qətlə yetirmişlər.

61 yaşlı keçmiş girov Budaq Əli oğlu Alışanov erməni əsirliyində 5 azərbaycanlının Drmbon kəndində (Dağlıq Qarabağ) ağır fiziki işlərdə qul kimi istifadə edilərək öldürüldüyünün şahidi olmuşdur.

Əsirlikdən azad edilmiş İsrayıl Sarif oğlu İsmayılov təsdiq edir ki, ermənilər girov götürdükləri üç azərbaycanlının başını erməni qəbri üstündə kəsmişlər.

Laçın rayonunun sakini Səmayə Kərimova 2 yaşlı qızı Nurlanəyə və özünə verilən işgəncələrə dözməyərək erməni əsirliyində intihar etmişdir.

18 may 1992-ci il tarixdə Laçın rayonunun işğalı zamanı ailələri ilə birlikdə girov götürülmüş 1977-ci il təvəllüdlü Taleh Mədət oğlu İbişovun bildirdiyinə görə, ermənilər onun atası Mədət Əvəz oğlu İbişovu və bacısı, 1967-ci il təvəllüdlü Yeganə Mədət qızı İbişovanı vəhşicəsinə öldürmüşlər.

1973-cü il təvəllüdlü İlham Nəsirov əsirlikdə uzun müddət ac-susuz saxlanıldığından 23 noyabr 1993-cü il tarixdə Yerevan hərbi hospitalında kəskin kaxeksiya diaqnozundan vəfat etmişdir.

Erməni əsirliyində ölmüş 20 yaşlı Fərhad Rəhman oğlu Atakişiyevin meyidinin qalıqlarının məhkəmə-tibbi ekspertizası sübut etmişdir ki, o müntəzəm döyülmələr və ağır işgəncələr nəticəsində qətlə yetirilmişdir

Yardımlı rayonu sakini Heydər Heydərov Şuşa həbsxanasında ermənilər tərəfindən verilmiş müntəzəm işgəncələr nəticəsində ölmüşdür. (24.12.1994) Bu barədə keçmiş əsirlər Həbib Əliyev, Əvəz Muxtarov, Əbulfət Qasımov və digərləri şahidlik edir.

Erməni əsirliyində olan Xocalı şəhər sakini Faiq Şahmalı oğlu Əliməmmədov Gəncə şəhərinin adını "Kirovabad" demədiyinə görə, erməni hərbçisi tərəfindən güllələnmişdir. Bu barədə Zülfi İbrahim oğlu Məmmədov, Məmməd Cümşüd oğlu Məmmədov və digərləri şahidlik edir.

Əsirlikdən azad edilmiş Abuzər Manafovun, Həsən Hüseynovun və Aydın Əziz oğlu Məhərrəmovun ifadəsinə görə, 14 fevral 1994-cü il tarixdə Şuşa həbsxanasında saxlanarkən Kolya, Slavik və Qor adlı nəzarətçilər əslən Beyləqan rayonundan olan İlqar Ənvər oğlu Qurbanovu müntəzəm işgəncələr verərək öldürmüşlər.

1962-cı il təvəllüdlü Şəmkir rayon sakini Fikrət Həsən oğlu Hüseynov müntəzəm döyülmələr və işgəncələr nəticəsində 28 iyun 1993-cü il tarixdə erməni əsirliyində vəfat etmişdir. Əsirlikdən azad edilmiş Bəxtiyar İbrahim oğlu Tağıyev və Mətləb Şiraslan oğlu Allahverdiyev bu faktın şahidləridir. Bakıda keçirilmiş məhkəmə-tibbi ekspertizası zamanı Fikrət Həsən oğlu Hüseynovda qabırğa sınıqları aşkar edilmişdir.

Əsirlikdən azad edilmiş Zöhrab Nadir oğlu Heydərov 21 may 1993-cü il tarixdə Şuşa həbsxanasında, 1973-cü il təvəllüdlü Zahid Nəsibulla oğlu Əmrullayevin erməni nəzarətçiləri tərəfindən boğularaq qətlə yetirildiyini bildirmişdir.

Girovluqdan azad edilmiş Maşallah Bəndəliyev bildirmişdir ki, 1992-ci ilin mayında Xankəndində qaracda saxlanılarkən qaracın sahibi Mero və Sarkisyan Vazqen adlı digər erməni bir nəfər adını bilmədiyi lal girova əvvəl müxtəlif dərəcəli işgəncələr vermiş, sonra isə onun başını kəsmişlər.



**Xocalı soyqırımından qaçarkən ayaqları donmuş azərbaycanlı uşağı**

Beynəlxalq hüququn əsas mənbəsi hesab olunan IV Cenevrə Konvensiyası və digər beynəlxalq hüquqi aktların silahlı münaqişələr zamanı mülki şəxslərin girov götürülməsini və saxlanılmasını qadağan etməsinə baxmayaraq, biz Dağlıq Qarabağ münaqişəsində erməni tərəfinin davranışlarında bunun tam əksini müşahidə edirik.

**Ermənistanda əsir və girovluqda qul kimi istiafdə olunan azərbaycanlılar**

**Hələ bir neçə il əvvəllər Ermənistan Müdafiə Nazirliyinin rəhbərliyi və digər dövlət qurumlarının əməkdaşları dəfələrlə əsir və itkin düşmüş, girov götürülmüş şəxslərin işi üzrə keçirilən tədbirlərdə nə Ermənistanda, nə də Azərbaycanın işğal olunmuş Qarabağ bölgəsində azərbaycanlı əsirlər və girovların olmadığını həyasızcasına bəyan etməsinə baxmayaraq, ayr-ayrı mənbələrədn əldə olunmuş məlumatlar bunu əksinin təsdiqləyib.**

Azərbaycan tərəfi isə Ermənistan hakimiyyətinin dünyanı aldatmaq istədiyini, lakin özünü ifşa etdiyini bildirir.

Hələ o dövrdə Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) mətbuat katibi Hikmət Hacıyev bəyan etmişdi ki, Ermənistan ərazisində və işğal olunmuş ərazilərdə azərbaycanlı əsir və girovların olmadığı barəsində absurd fikirlə çıxış edən rəsmi İrəvan əslində öz yalanlarını ifşa edir. Onun sözlərinə görə, 2014-cü ilin sonunda prezidentlərin Paris görüşündə əsir və itkin düşmüş və girov götürülmüş şəxslərin işi üzrə münaqişə tərəfləri olan Ermənistan və Azərbaycan arasında Beynəlxalq Qızıl Xaç Komitəsi vasitəsilə məlumat mübadiləsi və əməkdaşlıq təklif olunub:

"Ermənistanın təcavüz və işğalı nəticəsində 4000-dən artıq vətəndaşı itkin düşmüş hesab olunan Azərbaycan tərəfi humanist məram daşıyan bu təklifə hazırlığını ifadə edib. Şahidlərin ifadələri və əməliyyat-istintaq materialları əsasında Ermənistan tərəfindən əsir və girov götürülmüş azərbaycanlılar, o cümlədən mülki şəxslərin ən qəddar işgəncələrə məruz qoyulduqları, kütləvi şəkildə öldürüldükləri və kütləvi məzarlıqlarda basdırıldıqları faktları sənədləşdirilib. Ermənistan ərazisində və işğal olunmuş ərazilərdə azərbaycanlı əsir və girovların olmadığı barəsində absurd fikirlə çıxış edən rəsmi Yerevan əslində öz yalanlarını ifşa edir. Soydaşlarımız Dilqəm Əsgərov və Şahbaz Quliyevin girov kimi

qanunsuz saxlanmaları buna bir əyani sübutdur, "institusional yaddaş zəifliyi"ndən əziyyət çəkən Ermənistan tərəfinə 90-cı illərin sonu və 2000-ci illərin əvvəlində Ermənistanın özü tərəfindən də əsir və girovluqda olduğu təsdiq olunmuş və sonradan barələrində heç bir məlumat verilməmiş şəxsləri xatırlatmaq kifayətdir: "Hesab edirik ki, ATƏT-in Minsk Qrupunun həmsədrlərinin təzyiqi və Beynəlxalq Qızıl Xaç Komitəsinin təsiri nəticəsində girov götürülmüş soydaşlarımız Dilqəm Əsgərov və Şahbaz Quliyev dərhal azad edilməli, Ermənistan ərazisində və işğal edilmiş ərazilərdə olan kütləvi məzarlıqlar açılmalı və insan qalıqları əsasında DNT məlumat bazası yaradılmalıdır. Nəticədə DNT analiz vasitəsilə itkin düşmüş şəxslərin taleləri müəyyənləşdirilə və 20 ildən artıq öz yaxınları haqqında xəbər gözləyən ailələrə məlumat verilə bilərdi. Ermənistan tərəfinin yürütdüyü qeyri-insani siyasətinin nəticəsidir ki, hər biri fərdi əsasda tədqiq edilməli olan bu faktlar araşdırıla bilinmir və öz beynəlxalq hüquqi məsuliyyətini dərk edən Ermənistan müxtəlif bəhanələrlə prosesə maneə olmağa çalışır".

Bu əməllərə görə Ermənistanın hüquqi məsuliyyətinə aydınlıq gətirən H.Hacıyev bildirib ki, Ermənistanın hüquqi məsuliyyəti dedikdə burada bu cinayət əməllərini həyata keçirmiş və ya bu barədə əmrlər vermiş Ermənistanın hərbi və mülki vəzifəli şəxslərinin, həmçinin dövlət olaraq Ermənistanın məsuliyyəti vardır: "İkrah doğuran hal odur ki, hələ də bu şəxslər Ermənistanın siyasi, hərbi idarəçiliyində və hüquq-mühafizə orqanlarında yüksək vəzifələr tuturlar. Bu əməlləri törətməklə, Ermənistan tərəfindən bir dövlət olaraq, Cenevrə konvensiyaları, mülki və siyasi hüquqlar haqqında beynəlxalq pakt, iqtisadi, sosial və mədəni hüquqlar haqqında beynəlxalq pakt, soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında konvensiya, bütün növ irqi ayrı-seçkiliyin aradan qaldırılması üzrə konvensiya, işgəncələr əleyhinə konvensiya və silahlı münaqişələr zamanı mədəni mülkiyyətin qorunması haqqında konvensiya və digər beynəlxalq sənədlər üzrə öz üzərinə götürdüyü öhdəliklər kobud şəkildə pozulub. Beynəlxalq hüquqi mexanizmlərdən istifadə edərək, Azərbaycan tərəfi bu əməlləri törətmiş Ermənistanın hərbi və mülki vəzifəli şəxsləri, eləcə də Ermənistanın dövlətinin məsuliyyətinin müəyyən olunması istiqamətində fəaliyyətini davam etdirir".

Erməni vandalları tərəfindən yaradılmış altı qadın və uşaq əsir düşərgəsi haqqında çox ciddi mənbələrə əsaslanan informasiyalar var: Vardenis uşaq düşəgəsi, Razdan uşaq düşərgəsi, Xankəndi uşaq düşərgəsi, Getaşen qadın düşərgəsi, Cermux qadın düşərgəsi, Kəlbəcər qadın düşərgəsi.Bu düşərgələrdə yüzlərlə azərbaycanlı əsir və girovların saxlanıldığı bildirilir.

Ermənistanda və işğal olunmuş Qarabağ ərazilərində azərbaycanlı əsirlərin saxlandığını bir sıra beynəlxalq təşkilatlar da zaman-zaman qeyd ediblər. Məsələn, Avropa Şurası Parlament Assambleyası hələ 2001-ci ildə Ermənistanda və Dağlıq Qarabağda saxlanılan hərbi əsirlər və girovlar haqqında yaydığı rəsmi sənədində bildirib ki, Beynəlxalq Qızıl Xaç Cəmiyyətinin 2001-ci il 10 aprel tarixli məlumatına əsasən, Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi nəticəsində 4959 nəfər Azərbaycanlı itkin düşmüş, onlardan 1092 nəfəri 1992-2001-ci illər ərzində azad edilmişdir, indi Ermənistanda və Azərbaycanın işğal olunmuş ərazilərində 783 nəfər əsir saxlanılır, onlardan 18-i uşaq, 43-ü qadın, 56 nəfəri qocadır. Ancaq Ermənistan tərəfi bu faktı inkar edir.

Parlament Assamableyasının sənədinin 5-ci bəndində isə deyilir ki, Azərbaycan və Ermənistan Avropa Şurasının tamhüquqlu üzvüdür. Belə bir nüfuzlu təşkilatın üzvü olan ölkənin ərazisində hətta adi insan hüquqları qorunmayan bu qədər əsirin olması qəbuledilməzdir.

Altıncı bənddə isə qeyd olunur ki, azad edilmiş əsirlərin dediyinə görə, əsirlikdə olanlar qul kimi işlədilir, daim təhqir olunur və işgəncələrə məruz qalırlar. Onlar normal

qidalanmır, lazımi tibbi yardım almırlar. Parlament Assambleyası Nazirlər Komitəsinə müraciət edərək Avropa Şurasının üzvü olan bir dövlətin - Ermənistanın işğal etdiyi Azərbaycan ərazisində insan hüquqlarına dair Avropa Konvensiyasının həyata keçirilməsini bütün imkanlardan istifadə etməklə təmin etməyə çağırıb.

Ermənistanın bəzi vətəndaşları da azərbaycanlı əsirlərin saxlandığı və onlara işgəncə verildiyini indiyədək bəyan ediblər. Ermənistan vətəndaşı, hakimiyyətin təzyiqlərindən ABŞ-a qaçmış keçmiş hərbçi Mesrop Martirosyanın bir neçə il öncə ABŞ məhkəməsinə verdiyi ifadələrdə qeyd olunur ki, Ermənistanda və işğal olunmuş ərazilərdə azərbaycanlı əsirlər saxlanır və onların sayı çoxdur, həmin əsirlərə işgəncə verildiyinin şahidi olub.

M.Martirosyan ifadələrində sözugedən qrup əsirlərə qarşı zorakı davranış, xüsusi ilə də erməni ordusunun nəzarətində olan, Dağlıq Qarabağdakı əsir düşərgələrində saxlanılan azərbaycanlı əsirlərə işgəncələr verilməsinə qarşı çıxışlar etdiyini, hərbi əsir düşərgələrində əzab verilmiş, bədənlərinin hissələri kəsilmiş əsirləri gördüyünü bildirib. Bununla yanaşı, o, azərbaycanlı əsirlərə qarşı vəhşiliklər barəsində fikirlərini əsaslandırmaq üçün bir sıra beynəlxalq təşkilatların məqalələri və press-relizlərini də misal çəkir.

Göründüyü kimi, Ermənistan və işğal olunmuş Dağlıq Qarabağ ərazisində azərbaycanlı əsir və girovların olması, onlara qarşı törədilmiş cinayətlər barədə Azərbaycan tərəfinin bu illər ərzində müxtəlif beynəlxalq təşkilatlara təqdim etdiyi faktlar bir daha Ermənistan vətəndaşının dilindən etiraf olunu
Erməni əsirliyində qul olan Azərbaycanlı girovlar - beynəlxalq elektron jurnalına istinadən əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar faktlar.

***1993-cü ildən bu günə qədər Azərbaycan əsirləri onların taleyi haqda*.**

Araşdırmalarımıza görə Dağlıq Qarabağda qanlı müharibələrin başladığı ilk günlər Azərbaycan əsirlərini Şuşa və Xankəndi həbsxanalarında saxlayan ermənilər Qırımızı Xaç və digər beynəlxalq təşkilatların gözlərindən onları gizlətmək üçün bir neçə əsas gizli məkan seçir. Onlardan biri Spitak rayonunda zəlzələ nəticəsində yararsız hala düşən binaların birində yaradılan gizli düşərgə(Ermənistan) ünvan, 306-cı məhəllə, ikinci Əsgəran rayonunda (Qarabağ) yerləşən Bankın zirzəmisi,Kəlbəcər rayonunda qızıl yataqları çıxarılan mədənlərin içərisində, Leninakan və Gümrüdə keçmiş hərbi bazalarda.

Əsirlərin ilk olaraq işğal olunan rayonlarda ermənilərin talançılıq məqsədi ilə fəhlə kimi işlədilməsi olub. Hətta bəzi girov və əsirlərin Azərbaycan qəbirlərinin dağıdılmasına etiraz olaraq intihar etməsi bildirilir.

Henri Böll Fondunun layihiəsi əsasında 18-31 oktyabr 1998-ci ildə Qarabağ müharibəsi zamanı əsir və itkin düşənlərin taleyi ilə maraqlanan ekspertlərin hesabatında diqqəti cəlb edən bir iki məqamı yazmaq yerinə düşər:

№ 65 adı ilə əsir sayılan Məmmədəli Qasımov 16 iyun 1994-cü ildə "guya qaçış zamanı öldürülüb". Əslində bu şəxs Azərbaycan məzarını qazmaqdan və başdaşlarını sökməkdən imtina etdiyi üçün güllələnib. (1993-1995-ci illərdə Şuşa, Xankəndi və Xocavənd rayonlarında əsir saxlanılmış Rəsul Nemət oğlu Ramazanov Dövlət Komissiyasına ünvanlandığı 474/DK saylı izahatında qeyd etmişdir: "Şuşa şəhərində saxlandığım dövrdə oradakı azərbaycanlıların qəbiristanlığındakı baş daşların, qədim türbələrin, qiymətli plitələrin sökülməsinin şahidi olmuşam. Bundan başqa qədim şəhər məscidinin də söküldüyünü görmüşəm. Həmin materiallar Yerevana aid nömrə maşınlarla

birbaş Ermənistana daşınırdı. Göstərilənlərlə yanaşı, Ağdam rayonundakı tikililərin də sökülüb daşındığını görmüşəm".)

Elxan Əhmədov adlı girov Qarabağda işlərdən imtina etdiyi üçün 1994-cü ilin yanvar ayında İrəvan polis idarəsinə gətirilib və o da ildə "guya qaçış zamanı öldürülüb". Lakin həqiqət budur ki, İrəvan mərkəzində hərbi polis idarəsindən qaçmaq barədə hətta ən düşüncəsiz adam belə edə bilməz. Real həqiqət: fəhlə kimi Qarabağda işləməkdən imtina edən Elxan yerindəcə güllələnib. (1993-1996-cı illərdə erməni əsirliyində olmuş Məmmədov Vəlhəd Adil oğlu özünün 30.06.2003-cü il tarixli 474/DK saylı izahatında əsirlərin azərbaycanlılara məxsus tarixi abidələrinin sökülməsində işlədildiyini təsdiq edərək Şuşa məscidinin döşəməsinin söküldüyünü, Bülbülün büstünün güllələnmiş halda muzeyin həyətinə atıldığını, M.P.Vaqifin heykəlinin ətrafındakı döşəmənin mərmər lövhələrinin qoparıldığını və müsəlman qəbiristanlıqlarının dağıdıldığını bildirmişdir.)

Azər adlı 15 yaşlı mülkü şəxs. 1994-cü ildə Xankənində bir qadın tərəfindən erməni zabitlərindən pulnan alınmış və onun mülkündə xidmətçi kimi işləməyə cəlb edilmişdir.

Rəhimov Rəhim adlı bir azərbaycanlı girov geri qaytarılan əsgərlərin biri ilə 1993-cü ildə ailəsinə gizlincə məktub ötürə bilmiş və Xankənində saxlandığını yazmışdır. Erməni tərəfi belə bir adamın yoxluğunu iddia etsə də, həmin şəxs hazırda erməni girovluğunda qalmaqda və qul kimi ağır işlərdə çalışmaqdadır. (Əsir və girov götürülmüş şəxslərin azad edilməsi, itkin düşmüş şəxslərin axtarışı üzrə Almaniya, Rusiya vəGürcüstanın hüquq müdafiəçilərindən ibarət Beynəlxalq işçi qrupu və BQXK bu şəxslərdən bir qismininhəqiqətən də əsir götürülməsi və sonrakı taleləri barədə məlumatların gizlədilməsinə dair faktları təsdiq edirlər).

Osmanov Nadir-1992-ci ilin 16 iyununda Beynəlxalaq Qızıl Xaç Komitəsi tərəfindən girov kimi qeydə alınmasına baxmayaraq, erməni tərəfi onun da varlığını inkar edir. Hazırda bu şəxsin da qul kimi işlədilməsi ehtimalları var. (Erməni tərəfinin bu davranışı düşmən ölkənin müharibə zamanı əsir götürülmüş hərbçilər və girov düşmüş mülki şəxslərlə necə davrandığını ört-basdır etməyə hesablanıb. Çünki rəsmi rəqəmlərdə də deyildiyi kimi, əsir götürülənlərin və girovların bir çoxu Ermənistanda amansız işgəncələrə, qeyri-insani rəftara məruz qalıb, qətlə yetirilib, daxili orqanları çıxarılaraq xarici ölkələrə satılıb, bir çox hallarda isə tibbi eksperimentlər üçün istifadə edilib.)

Səfər Babayev. №. 30 kimi qeydiyyata alınıb. Qarabağda qul kimi işləməkdən imtina etdiyinə görə öldürülüb və 1992-ci ilin aprelində ailəsinə meyiti təhvil verilib.

Xocalı soyqırımının təşkilatçısı və iştirakçılarından biri olan general Manvel Qriqoryan panorama.am saytına açıqlamasında deyir: "Qarabağ müharibəsindən yüzlərlə azərbaycanlı əsirlə qayıtmışam, onlardan birini, 15 yaşlı yeniyetməni iki il Qarabağda, iki il Ermənistanda evində saxlayıb ona "Simon" adını vermişdim".

Erməni əsirliyində qul olan Azərbaycanlı girovlar 61 yaşlı keçmiş girov Budaq Əli oğlu Alışanov erməni əsirliyində 5 azərbaycanlının Drmbon kəndində (Dağlıq Qarabağ) ağır fiziki işlərdə qul kimi istifadə edilərək öldürüldüyünün şahidi olmuşdur.

Qonşu ölkələrdən birinin vətəndaşları mətbuata verdiyi məlumatlardan aydın olur ki, onlar Azərbaycanın işğal olunmuş Kəlbəcər rayonunun Zod kəndi yaxınlığındakı ərazilərdə yerləşən mədənləri gəzərkən, Ermənistanda mədənlərdə işləyən ac, səfil vəziyyətdə çox çoxlu insan görüblər. Dəmir məftillərlə çəpərlənmiş bölgədə işləyənlərin

şəxsiyyəti ilə maraqlananlar heyrətə gəlib. Onlara rəhbərlik edən erməni, Zod qızıl mədənlərində işləyənlərin azərbaycanlı əsirlər olduğunu deyib.

Daha sonra işğal altında olan Qarabağda yaşayan ermənilərin Gürcüstana turist kimi gələnlərdə bildirmiş dilər ki, Ermənistan və Qarabağda çox azərbaycanlı əsir saxlanılır. Amma onlar bu adamları konkret saxlanma yeri açıqlamağa qorxurlar. Onların dediklərinə görə hazırda onların bir çoxu Kəlbəcər rayonunun Zod kəndi, Ağduzdağ və Tutxun qızıl yataqlarnda qul kimi işlədilir. O bildirib ki, əsir azərbaycanlıların bir qismi Kəlbəcərdə saxlanılır. "Bizə dedi ki, İrəvanda, Leninakanda, Gümrüdə də əsir azərbaycanlılar az deyil. Onlardan əsasən ağır fiziki işlərdə istifadə olunur.

Erməni əsirliyində qul olan Azərbaycanlı girovlar Zod kəndi yaxınlığında ermənilərin qızıl çıxartdığı bir yataq var, o da Zod aşırımının Azərbaycan yamacındadır. Coğrafi koordinatı belədir: 40°14’13.94″N, 45°58’3.85″E. Bura Hinaldağ cəbhə xəttindən cəmisi 8-9 kilometr məsafədədir. Həmin qızıl yatağı Qarabağı Ermənistanla birləşdirən əsas magistral yolun düz kənarındadır.

Bu cür məlumatlar bir daha Ermənistanın "Müharibə qurbanlarının müdafiəsinə dair" 1949-cu il tarixli Cenevrə konvensiyalarını kobud şəkildə pozduğunu təsdiqləyir. Əsir-döyüşən şəxslərə deyilir. Döyüşə qatılmayan, əsgər olmayan mülki əhali "girov" adlanır. Konvensiyayaya görə müharibə və münaqişələr zamanı mülki əhalinin girov götürülməsi qadağandır və girovlar dərhal geriyə qaytarılmalıdır.

*İstinad: "Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası", Светлана Ганнушкина, Bernhard Clasen, Паата Захаришвили "Отчет о поездке в зону Карабахского конфликта18 – 31 октября 1998 года" və Beynəlxalq Qırmızı Xaç Cəmiyyətinin və beynəlxalq təşkilatların hesabatları.*

## 3.Ermənilərin azərbaycanlı əsir və girovlara qarşı törətdikləri işgəncələrin (vəhşiliklərin) bəzi nümunələri

Bir neçə illərdir ki, aparılan müxtəlif araşdırmalar, tədqiqatalar, həmçinin əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında olan materiallar sübut edir ki, Ermənistan tərəfi əsir və girov götürülmüş Azərbaycan vətəndaşlarına qarşı məqsədli soyqırımı siyasəti yeridir. Yüzlərlə Azərbaycan vətəndaşı, o cümlədən uşaq, qadın və qocalar erməni əsir və girovluğunda dözülməz işgəncələrin qurbanı olmuşdur. Çoxsaylı faktlar göstərir ki, əsir və girovlara müxtəlif dəhşətli işgəncələr verilmiş-onlar vəhşicəsinə döyülmüş, qəsdən şikəst vəziyyətinə salınmış, sinələrinə qızdırılmış xaç nişanları ilə damğa basılmış, dırnaqları və dişləri çıxarılmış, yaralarına duz basılmış, ölənə qədər rezin və dəmir dəyənəklərlə döyülmüş, damarlarına benzin yeridilmişdir.



- Girov götürülərkən 3 yaşı olan Şövqi Xaqani oğlu Əliyevin (24.07.1993) bazu sümüyü Xankəndində erməni "həkimləri" tərəfindən çıxarılmış, nəticədə Şövqi ömürlük şikəst olmuşdur.



- Kəlbəcər rayonunun işğalı zamanı girov götürülən (31.03.93) Gülcamal Quliyevanın yenicə dünyaya gəlmiş oğlu Arzu Hacıyevə erməni "həkimi" Aida Serobyan naməlum tərkibli iynələr vurmuşdur. Nəticədə Arzu Hacıyev ömürlük şikəst olmuşdur.



- Anası Afət Mirzəyevanı və babası Aslan Mirzəyevi ermənilər vəhşicəsinə güllələyərkən Babək İlyasov cəmi yeddi aylıq imiş. Qəlpələr Babəkin sağ gözünü yaralamış, lakin buna

baxmayaraq ermənilər onu da Kəlbəcər rayonundan girov götürülmüş digər həmkəndliləri ilə birlikdə yalnız dörd aydan sonra və həm də müalicə etmədən qaytarmışlar. Hazırda Babəkin bir gözü kordur.

- Ermənilər 15 yaşlı girov Nəzakət Məmmədovanın gözləri qarşısında atasına dəhşətli işgəncələr vermiş, onun qulaqlarını kəsmiş, anası hədə və şantajlara dözməyərək dəli olmuş, qızın özünü isə 4 mln. rus rubluna ailəsinə satmışlar.
- Zəminə Göyüş qızı Dadaşova ermənilər tərəfindən girov götürülərkən qolundan aldığı güllə yarası baxımsızlıq üzündən çirk eləmiş və onun bədənində çürümə prosesi getmişdir. Hazırda Zəminənin sol qolu işləmir. Girov götürülən zaman isə ermənilər onun atası Göyüş Dadaşovu və yaşlı nənəsi Qönçə İbadovanı yerindəcə güllələmişlər.
- Erməni nəzarətçiləri Ağdam rayonundan girov götürülmüş Kəklik Həsənovaya dəhşətli işgəncələr vermiş, mismar kəlbətini ilə onun 16 dişini çıxarmışlar.
- Ağdam rayonunun işğalı zamanı ermənilər tərəfindən girov götürülən yaşlı qadın Şərqiyyə Rza qızı Şirinovanın 8 qızıl dişi mismar kəlbətini ilə çəkilmişdir. O, altı ay davamlı işgəncələrə məruz qalmışdır.
- Qubadlı rayonunun işğalı zamanı 65 yaşlı Biniş Rəsul qızı Məmmədova və 69 yaşlı Sara Miriş qızı İsmayılova girov götürülüb Xankəndi hərbi hissəsində saxlanmışdır. Burada onları gündüz ağır fiziki əmək tələb edən işlərdə işlədir, gecələr isə xüsusi amansızlıqla döyürmüşlər. Onlarla birlikdə saxlanan Şahsənəm və Əsli adında qadınlar bu cür ağır işgəncələrə dözməyərək girovluqda ölmüşlər.
- Ağdam rayonunun keçmiş sakini, milliyyətcə rus olan, erməni əsirliyində hədsiz işgəncələrə məruz qalmış Vladimir İvanoviç Şevelyov 1994-cü ildə Ağdam rayonunun işğalı zamanı 89 yaşlı anası Vera Davıdovnanın və ahıl yaşlı bacısı Svetlana İvanovnanın, eləcə də 58 yaşlı xəstə qardaşı Anatoli İvanoviçin ermənilər tərəfindən vəhşicəsinə öldürülüb yandırıldığını, Ağdam kanalının yanında saysız-hesabsız qadın və uşaq meyiti gördüyünü bildirir. Bundan əlavə Vladimir Şevelyov şahidlik edir ki, ermənilər Ağdam rayonunun işğalı zamanı oradakı ruhi xəstəxanada saxlanan 7 ruhi xəstəni, o cümlədən iki xəstə qadını girov götürmüşlər. Onların biri azad edilmiş, biri döyülə-döyülə öldürülmüş, digərlərinin sonrakı taleyindən isə bu günədək məlumat yoxdur.
- 1930-cu il təvəllüdlü Ağdam rayon sakini Əli Rəsul oğlu Abbasov erməni girovluğunda mütəmadi olaraq döyülmüş, onun bədəninə siqaret basılaraq yandırılmışdır. Aldığı mənəvi və fiziki işgəncələrdən özünə gələ bilməyən Əli Abbasov erməni əsirliyindən azad ediləndən bir müddət sonra vəfat etmişdir.
- Erməni hərbçiləri Füzuli rayonundan girov götürdükləri Mürvət Fətiş oğlu Ağayevi döyərək qulağını kəsmiş, əllərini məftillə arxadan bağlayaraq ağacdan asmış və ayaqlarının altında ocaq qalayaraq yandırmışlar.
- Hərbi əsirlər - Novruz Məhəmməd oğlu Daşdəmirov, Namiq Cavanşir oğlu Qarayev mütəmadi döyülmə, bədənlərinə qızdırılmış cismlərlə dağ basılma və başlarına mismar çalınması nəticəsində ruhi xəstə həddinə çatdırılmışlar.
- Hərbi əsir Mürşüdov Sədrəddin Aslan oğlu döyüldükdən sonra şüşə qırıqlarını udmağa məcbur edilmişdir.
- Yaralı vəziyyətdə əsir götürülmüş Əbdüləzim Məcnun oğlu Məmmədov rezin dəyənəklə döyülmüş, damarına benzin yeridilmiş, yaralarının qaysağı qopardılaraq ona əzab verilmiş, üstünə təlim keçmiş it buraxılmışdır.
- Mayıl Məhəmmədəli oğlu Məmmədovun damarına dizel yanacağı yeridilmiş, sinəsi qızdırılmış xaçla damğalanmışdır.
- Vəhşicəsinə döyülmə nəticəsində hərbi əsir Cavid Ağa oğlu Hüseynovun çənəsi və qabırğaları sınmışdır. Ermənilər dəmir parçası ilə Cavidin qoluna damğa basmış və yarasının üzərinə kislota tökmüşlər.
- Yeddi aylıq Babək İlyasovun anası Afət Mirzəyeva və babası Aslan Mirzəyevi ermənilər vəhşicəsinə güllələnmişlər. Qəlpələrdən Babəkin sağ gözü yaralanmışdır, lakin buna baxmayaraq ermənilər onu da Kəlbəcər rayonundan girov götürülmüş digər həmkəndliləri

ilə birlikdə yalnız dörd aydan sonra və həm də müalicə etmədən qaytarmışlar. Hazırda Babəkin bir gözü kordur.

**Digər mənbələrdənn əldə olunmuş və şahid ifadələri ilə təsdiqlənmiş işgəncələr.**
**1.**Dəyənək, armatur və digər dəmir alətlərin əsirlərin anus dəliyinə yeridilməsi: Bu vəhşilik əsasən Şuşa türməsində saxlanılan əsgərlərin başlarına gətirilirdi. Misal üçün bu gün Ermənistanda mühüm dövlət postlarından birini tutan Samvel Babayanın "sevimli" işgəncə növüdür. Bakı şəhərindən olan Rauf adlı şəxsə qarşı edilən bu vəhşilik əsrilikdən azad edildikdən sonra onun bağırsaqlarından on santimetr kəsilərək götürülməsinə səbəb olmuşdur.

2.Hamilə qadınların qarınlarının cırılaraq uşaqların ordan çıxarılması: Ermənilər əsasən Xocalı şəhərindən əsir düşən hamilə qadınların qarınlarını əsgər bıçağı ilə cıraraq, onun bətnindəki uşağı itlərə yem edir, qadının daxilinə giliz, diri pişik, ilan, qurbağa, siçan və sairə doldurur, yaranı tikir və qadının əzablar içərisində ölməsinə baxırdılar.


1.

3. Zorlama: Ermənilər 4 yaşından 60 yaşına qədər bütün qız və qadınları növbə ilə zorlayır, sonra onları lüt halda rəqs etməyə məcbur edirdilər. Xocalıdan əsir düşən 6 yaşlı bir qızın zorlanmasına dözə bilməyən anası özünü kəndirlə boğaraq, digəri isə işləməyə aparılanda yaba ilə özünü öldürmüşdür. Əsir azərbaycanlı qızların içərisində bakirə olaraq saxlanan qızlar Qarabağa qonaq gələn xaricdəki ermənilərə və bəzi xarici ölkələrin yüksək titullu məmurlarına hədiyyə edilirdi.

4.Bir-birləri ilə cinsi əlaqəyə məcbur edilmə: Azərbaycanın əsgər və əsir düşmüş mülkü vətəndaşlarını bir- birləri ilə cinsi əlaqəyə məcbur edən ermənilər onları kamera ilə çəkirdilər.



5.Siçovul yuvası: Əsirin əl - ayağını bağlayıb, dəmir vedrəyə oturdub, bağlayır və içərisinə diri siçovul qoyurlar. Vedrənin arxasın deşib siçovlun keçə biləcəyi dəlik saxlayır və əsiri həmin dəliyin üstə saxlayırlar. Sonra vedrəni qızdırırlar və içəridə istidən əriyən siçovul əsirin anus dəliyinə girərək onun daxili orqanlarını yeyir və çölə çıxır. Bu cəza növünü əsasən Suriya və Livan erməniləri edirlər.

6.Qulağa güllə: Əsirin əllərin qolların ağaca bağlayır və qulağın iplə dartırlar. Bir güllə ilə qulağı dağıdan erməniyə pul mükafatı verirlər.



7.Odda yandırmaq: Bir neçə əsiri, qollarından hündürdən asaraq, ayaqları altında tonqal qalamaq, isti suda diri-diri yandırmaq, quyuya ataraq üstünə dizel yaxud benzin tökərək yandırmaq, dəmir boruya salıb oda atmaq, taxtaya bağlayıb od vurmaq və sairə formada yandırmaq.



8. Qurban kəsmək: Ermənilər əsir düşən azərbaycanlıları bayramlarında, ölən əsgərlərinin və yaxınlarının məzarlarının üstündə qurban kəsirdilər. İlk olaraq dəyənək və zopa ilə döyüb, sonra qollarını yana açaraq əvvəl birini, sonra da o birini balta ilə kəsib, sinəsini yararaq ürəyini çıxardırdılar. Xəncər və balta ilə birdəfəyə əsirin boynun vurmaqdan mərcə girənlər, tam boynu kəsilməyən əsirlərin xırıltı ilə ölümünə baxırdılar.

9. Mismarlamaq: Əsirlərin əllərini və ayaqlarını taxta parçasına mismarlayır, başlarına mıx vururlar. Ən "sevimli" oyunları əsirin əllərini ağaca bağlayır və pnevmotik mismar vuran aparatla onun beynini, gözünü, ürəyini nişan alırdılar.




10. Sidik və nəcis yedirtmək: Ermənilər əsirləri ac və susuz saxlayır və onları sidiklərindən içməyə məcbur edirdilər. Ac qalanların qarşısında nəcislərin ifraz edib əsirlərə yedirdirdilər.



11. Bayraq öpmə: Erməni və Azərbaycan bayrağını asır, günlərlə ac qalan əsirləri öz bayraqlarını öpməyə və Azərbaycan bayrağına tüpürməyə məcbur edirdilər. Əməl etməyini döyür, qolunu-qıçını sındırırdılar.

12. Şüşə və mıx yemə: Əsirləri ac saxlayır və onlara şüşə, mıx, digər dəmir parçaları yeməyə məcbur edirdilər. Sağ qalana yemək verir , öləni isə ayaqyoluna atırdılar.

13. İt əvəzinə saxlamaq: Əsirləri imkanlı ermənilər alıb öz bağlarında, evlərində it damında saxlayır, boğazlarına zəncir taxır və it kimi durmağa və hürməyə məcbur edirdilər. Bəzən "it döyüşü" keçirir və mərcə girirdilər. Etiraz edəni döyüb, oda atırdılar.

14. İtlərə yem etmək: Əsirləri sıraya düzür, hasara çəkilən əraziya salır və təlim keçmiş itləri onların üstünə buraxırdılar. İtlər əsirləri parça-parça edirdi.

15. Qulaqdan qumar: Əsir düşənləri sırya düzür və onların qulaqlarını kəsərək qumar oynayırdlar. Daha çox qulaq "qazanan" istədiyi məbləği almaq hüququ əldə edirdi.

16. Diş çıxarma: Onların qızıl dişin kəlbətinlə dartıb çıxardır,yaxud da avtomatın qundağı ilə döyərək sındırırdılar. Əsirləri Azərbaycan meyitlərinin ağzından qızıl dişlərini çıxartmağa və qəbrləri açdıraraq ölmüş insanların ağızlarındakı qızıl dişləri onlara gətirməyə məcbur edirdilər.

17. İynə: Əsir düşənlərin bədənlərinə benzin, dizel, spirt və digər naməlum tərkibli məhlular vuraraq onları şikəst edirdilər.

18. Orqan satışı: Əsir düşənlərin daxili orqanlarını əməliyat edir və xarici ölkələrə satışın həyata keçirirdilər.


.

19.Ölülərə həqarət: Ermənilər ölən əsirlərin meyitlərini ayaqyoluna atır, donuzlara yem edir və hətta onların ətin bişirdib əsirlərə yedizdirirdilər.

20. Kəndirlə bağlama: Əsirin ayaq hissəsi ilə boyun hissəsini iki qatlayaraq bağlayır və əsir ikiqatlanmış halda 24 saat durmağa məcbur edilirdi.

21. Qutuya salmaq: Əsirlər xırda sandıq və qutulara salınır, orada 3 gün qalmağa məcbur edilirdi.

22. Yaralılara əzablar: Əsir düşən yaralı əsirlərin yarası üzərinə kislota, benzin, qaynanmış yağ və sairə tökürdülər. Ağrı törətmək və ya təcrübə məqsədilə cərrahiyyə əməliyyatı aparırdılar.

23. Göz çıxartma: Qızdırılmış əsgər bıçağı ilə əsirlərin gözləri çıxardılır və itlərə yem edilirdi.



24. Qorxu: Qadın və uşaqların üzərinə ilanlar, hörümçəklər, siçanlar və sairə heyvan və həşaratlar salır , onların qorxu və qışqırtılarına baxır ,əylənirdilər.

25. Dırnaqların çıxarılması və dərinin soyulması: Əsirləri sıraya düzür və dırnaqlarını dartıb qopardırdılar. Sonra dərilərini ülgüclə soyurdular.

26. Sürülmə: Əsirləri maşınların arxasına bağlayır və şəhər boyu sürüyürdülər. Bəzən tankın qabağına lüt Azərbaycan qızı bağlayır ,onun əlinə erməni bayrağı verirdilər.



27. Asmaq: Əsirin qaldırıcı kranla boğazından asır, bir az saxlayıb yerə endirir və bu formada gün ərzində "əylənirdilər".

28. Çöp: əsirlər yatmasın deyə göz qapaqlarına kibrit qoyurdlar. Və bu formada ğözlərini açıq saxlamağa məcbur edilirdilər.

29. Danışmaq qadağası: Əsirlərin bir-biri ilə danışmaması üçün dillərini iplə bağlayırdılar. Əsir gecəni dili dəmirə bağlı halda qalmağa məcbur olurdu.

30. Kərpiç: Qadının döş uclarına və döşlərinə iplə kərpiç bağlayır və belə bir neçə saat durmağa məcbur edilirdi.

31. Saçlarından asılmaq: Qadın və qızları saçlarından otağın ortasından lüt formada asır və onun bədəninə tüpürürdülər.

32. Kişilikdən məhrum etmə: Kişilərin cinsiyyət üzvündən ipə bağlanmış daş asır və beləcə bir neçə saat qalmağa məcbur edilirdi.

33. Baş presi: Əsirin çənəsi düz bir yerə qoyulur və başının üzərindən dəmir bir kəmər keçirilir. Yavaş-yavaş sıxışdırılan əsirin əvvəl dişləri qırılır ardından da bütün baş əzilir.

Bu siyahını artırmaq da olar. İşgəncə Qurbanlarının Müdafiəsi Təşkilatı hazırda dünyada daha çox yayılmış və müxtəlif vaxtlarda bir neçə dəfə tətbiq edilmiş işgəncə növlərinin siyahısını tərtib edib.

Ermənilərin azərbaycanlılara qarşı etdikləri siyahıdan iki dəfə çoxdur. Əsirlikdə olan Azərbaycan vətəndaşları dəhşətli işgəncələr və mənəvi əzablara məruz qalıblar. Əsirlikdən azad olunmuş vətəndaşlarımızın şahid olduqları hadisələr dözülməz və danılmazdır.

Ermənilər birbaşa və aşkar surətdə "Hərbi əsirlər ilə rəftar haqqında" 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyasını, BMT Baş Assambleyasının "İtkin düşmüş şəxslər" adlı 18 dekabr 2002-ci il tarixli qətnaməsini, İnsan hüquqları haqqında Ümumi Bəyannamənin 5-ci maddəsinin, həm də Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 7-ci maddəsini, Birləşmiş Millətlər Təşkilatı İşgəncələr və digər

qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı Konvensiyanı və sairəni pozmuşlar.





## 4. 27 sentyabr-10 noyabr 2020-ci il Vətən Müharibəsində (İkinci Qarabağ müharibəsi) azərbaycanlı əsirlərə qarşı işgəncə faktları

2020-ci il Vətən Müharibəsi Milli Ordumuzun şanlı qələbəsi və torpaqlarımızın azad edilməsi ilə nəticələnib.

30 ilə yaxın müddət ərzində işğal altında olan torpaqları 44 gün davam edən Vətən müharibəsi zamanı Azərbaycan azad etdi və öz ərazi bütövlüyünü təmin etdi. Azad olunmuş ərazilərimizdə ermənilərin nə qədər vəhşilik, nə qədər vandallıq törətdiyinin əyani şahidi olduq.

Müharibə zamanı erməni terrorçularına çox ciddi zərbələr vurulub. Ancaq əlbəttə ki, döyüşlər zamanı hər iki tərəfdən əsir düşənlər olur. Azərbaycan tərəfi hər zaman bütün beynəlxalq norma və prinsiplərə uyğun olaraq əsir və girovların saxlanılması, onların dəyişdirilməsi, o cümlədən humanitar atəşkəs zamanı erməni hərbçilərinin meyitlərinin qaytarılması ilə bağlı bütün norma və prinsipləri qoruyub. Ancaq çox təəssüf ki, erməni tərəfi azərbaycanlı əsirlərlə davranışda hər zaman olduğu kimi vandallıq, barbarlıq edir, sosial şəbəkələrdə azərbaycanlı əsirlərə verdikləri işgəncələri açıq-aşkar nümayiş etdirirlər.

Bu, erməni vəhşiliyinin, erməni murdarlığının növbəti bir təzahürüdür. Çox təəssüf ki, bununla bağlı beynəlxalq təşkilatlar yenə də susqunluqlarını davam etdirirlər. Çox təəssüfedici haldır ki, 21-ci əsrdə insanlara bu qədər işgəncə vermək, güc tətbiq etmək və zorakılığa məruz qoymağa beynəlxalq təşkilatlar susqunluqla yanaşır.

Əlbəttə, burada ilk növbədə insan haqları üzərində birləşən beynəlxalq təşkilatlar və insan haqları ilə bağlı davamlı çıxış edən dövlətlər bugünə qədər susqunluq nümayiş etdirirlər. Bu çox təəssüfedici haldır. Beynəlxalq təşkilatlar bu məsələləri görməzdən gəlməməlidirlər və beynəlxalq hüququ əsas götürərək erməni tərəfinə təzyiqlər və təsirlər göstərməlidirlər. Çünki bu vandallıqdır, dünyanın heç bir yerində əsirlərə qarşı belə vəhşilik edilmir".

Qeyd edək ki, müharibə vaxtı həm Azərbycan, həm də düşmən tərəfdən hərbçilərin əsir düşməsi halları baş verib. Bunu təsdiq edəcək hər iki tərəfin görüntüləri də vardır. Həmçinin noyabrın 10-da Qarabağda hərbi əməliyyatların bitməsi və atəşkəs barədə Azərbaycan, Rusiya prezidentləri və Ermənistan baş nazirinin birgə imzaladığı bəyanata uyğun olaraq, hərbi əsirlər, girovlar və digər saxlanılan şəxslər, habelə cəsədlərin mübadiləsi həyata keçirilir.

2020-ci il Vətən müharibəsində əsir düşmüş azərbaycan vətəndaşları Ermənistanda həmişə olduğu kimi yenə işgəncələrə, pis rəftar və şəxsiyyətin alçaldımsı hallarına məzruz qalıblar. İnanılmaz vəhşiliyin ən sonuncu məqamı kimi onu da qeyd etmək lazımdır ki, Azərbaycan hərbi qulluqçuları Musayev Amin Alim oğlu, Kərimov Bayram Yaşar oğlu ağır yaralı vəziyyətdə əsir alınarkən, hətta Ukraynalı jurnalsitin çəkiliş apardığı məqamlarda fiziki təzyiqə mərzu qalmış, döyülmüşlər. Erməni hərbçilərinin azğınlığı, vəhşiliyi o hətta çatmışıdr ki, bəlkə də jurnalistlərin həmin məqamda orada olması onun həyatını xilasına səbəb olmuşdur. Sonradan hərbi qulluqçu Musayev Amin Alim oğlu guya ki, Azərbaycan tərəfə təhvil verilirmiş kimi aldadılaraq, xüsusi avtomobilə yerləşdirilərək naməlum istiqamatə aparmışlar. Daha sonra avtomobil hərəkətdə olarkən yol boyu, köməksiz vəziyyətdə uzadılmış hərbçimizə qarşı fiziki zor tədbiq edilmiş, təhqirə məruz

qoymuşdular Bütün bunlar hamısı video materillarla təsdqi edilir. Əvvəlcə iki yaralı əsgərin döyüşlərdən sonra ukraynalı jurnalist Aleksandr Xarçenko və erməni əsgərlər tərəfindən ilkin tibbi yardım göstərildiyini əks etdirən videolar yayılıb. Bunun ardınca isə onlardan birinə maşının içərisində zorakı davranıldığını göstərən video da yayılıb.




Məhz bu hadisə ilə bağlı, Ermənistanın Azərbaycana qarşı təkrar hərbi təcavüzü nəticəsində əsir düşmüş Azərbaycan əsgərlərinə münasibətdə beynəlxalq hüquq normalarının və humanitar hüquq qaydalarının kobud şəkildə pozulması, onların işgəncələrə, alçaldıcı rəftara məruz qalmaları və digər faktlarla bağlı Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva tərəfindən 12 noyabr 2020-ci il tarixdə aidiyyəti beynəlxalq təşkilatlara müraciətlər ünvanlanmışdı. Lakin bu əsirlərin taleyi barədə xeyli müddət nə Ermənistan, nə də Beynəlxalq Qızıl Xaç komitəsi bir açıqlama verimməmişdi.

Digər iki hərbi əsir Əlizadə Nurlan Mehman oğlu və Həmidov Nahid Yaşar oğlu da əsir götürülən andan 10 –dan çox erməni hərbçi tərəfindən şiddətə məruz qalmış, vəhşicəsinə döyülmüş, davamlı olaraq yumruq, təpiklə, avtomatın qundağı ilə zərbələrə məruz qalmışlar. Bu hadisə barədə video materiallar mövcuddur. Bizdə olan məlumatlara görə, ona işgəncə verənlərdən biri – erməni hərbçisi hal-hazırda Azərbaycan tərəfə əsir düşmüşdür. Erməni əsirinin verdiyi ifadələrdən də aydın olur ki, Azərbaycanlı əsirlərə qarşı xüsusi qəddarlıqla yanaşma, onları döymək, təhqir etmək, işgəncələrə məruz qoyma, yerinə yetiilrməsi vacib olan sıradan bir hal olub. Hətta bu barədə erməni komadirlərinin xüsusi tapşıırıqları da olub, işgəncələr əsir düşənlərlə bağlı istisnasız olaraq, mütləq tədbirlərdən biri idi.







Digər bir hərbi əsir Baxşəliyev Emin Zahir oğlunun ciddi təzyiqlərə, işgəncələrə məruz qalması, şəxsiyyətinin alçaldılması, bu və digər hərəkətlərin edilməsinə məcbur edilməsi barədə video faktlar var.

Bu cür halların digər Azərbaycanlı hərbi əsirlərə - Abdinov Yəhya Vüqar oğluna, Əhmədzadə Mobil İlqar oğluna, Ələkbərov Ömər Teymur oğluna, Əliyev Şərif Elsevər

oğluna, Əliyev Anar Hidayət oğluna, Vəliyev Vəliəhəd Şakir oğluna və Yolçuyev Nurəddin Bəxtiyar oğluna da qarşı edilməsi müxtəlif mənbələrlə təsdiqlənir. Hərbi əsirlərimiz işgəncələrə məruz qalmış, şəxsiyyətlərinin alçaldılması hərəkərlərinə yol verilmişdir.

Erməni girovluğunda saxlanılan Şahbaz Quliyev və Dilqəm Əsgərovla bağlı isə məsələ daha da fərqlidir. 2014-cü il iyulun 11-də Rusiya vətəndaşı Dilqəm Əsgərov və Azərbaycan vətəndaşı Şahbaz Quliyev Kəlbəcər rayonunda öz ata-baba yurdlarını ziyarət etmək istəyərkən Ermənistan Silahlı Qüvvələri tərəfindən girov götürülüblər, İşğal altındakı Dağlıq Qarabağda Dilqəm Əsgərov və Şahbaz Quliyev üzərində qanunsuz "məhkəmə" qurublar. "Məhkəmə"nin qərarı ilə Dilqəm Əsgərov ömürlük, Şahbaz Quliyev isə 22 il müddətinə azadlıqdan məhrum edilmə cəzasına məhkum olunub. Bu dövr ərzində onların hansı şəraitdə saxlandığı, nə cür işgəncələrə məruz qalmaları və s. haqda kifayət qədər əsaslar var.

Ümumiyyətlə isə Azərbaycan Ordusunun peşəkarlığı, cəsarəti, qətiyənin nəticəsi olaraq 27 senntyab-10 noyabr Vətən müharibəsində Azərbaycan tərəfdən əsir düşənlərin sayı Ermənistanla müqayidədə dəflərlə azdır. Lakin bizim əsirlərin hər birinə qarşı pis rəftar, işgəncə, şəxsiyyətin alçaldılması faktlarının olması foto, video və şahid ifadələri ilə tam sübut olunub. Bu mənada Erməsitan Respublikasının azərbaycanlı əsirlərinə qarşı törətdiyi cinayətlərin antigöstəricisi 100%-dir. Bununla bağlı Azərbaycan tərəfdə kifayət qədər tutarlı materiallar var. Bundan əlavə ən iyrənc, insanlığa yaraşmayan fəaliyyət kimi erməni silahlı qüvvələrinin Azərbaycan əsgərlərinin cəsədləri üzərində təhqiredici, aşağılayıcı hərəkətlərə yol verilməsidir. Bu barədə də kifayət qədər video, foto və s. materiallar da mövcuddur.

Həmçinin onu da qeyd etmək lazımdır ki, deyilənlərlə yanaşı Azərbaycanlı hərbçilərin işgəncə ilə qətlə yetirilməsi (boğazının, başının kəsilməsi və s. ), Azərbaycanlı hərbçilərinin cəsədlərinin təhqir edilmnəsi, heç bir əxlaqı, mənəvi dəyərlərə sığışmayan hərəkətlərə məruz qalması və s. göürüntüləri olan video materillar da mövduddur. Bununla bağlı araşdıramlar davam edir. Sadalanan materilların araşdırılması yekunlaşdıqdan, məlumatlar dəqiqləşdikdən sonra bu hesabata əlavə olaraq materillar dərc ediləcək.

Qeyd olunanlarla yanaşı Erməniatanın əsir və girovlara qarşı qanuna zidd hərəkətlərini, vəhşiliyini sübut edən bir fakt isə bu günlərdə Bakı Hərbi Məhkəməsində baxılmış işdir, belə ki, Bakı Hərbi Məhkəməsində Ermənistan vətəndaşı Lüdviq Mkrtçyanın barəsində həbs qətimkan tədbirinin seçilməsinə dair istintaq orqanının verdiyi vəsatətə baxılıb. Məhkəmə vəsatəti təmin edib. Lüdviq Mkrtçyanın barəsində 4 ay müddətinə həbs qətimkan tədbiri seçilib. Qeyd edək ki, Lüdviq Mkrtçyan Azərbaycan Cinayət Məcəlləsinin 113-cü (tutulmuş və ya azadlığı başqa cür məhdudlaşdırılmış şəxslərə fiziki ağrılar və ya psixi iztirablar vermə) maddəsi ilə təqsirli bilinir.

Verilən məlumata görə, Lüdviq Mkrtçyan Birinci Qarabağ savaşında erməni əsirliyində olan azərbaycanlılara xüsusi amansızlıqla işgəncə verib. Həmin faktlar üzrə 2000-ci ildə Azərbaycanın Hərbi Prokurorluğunda cinayət işi başlanıb.

Bu il sentyabrın 27-də Vətən Müharibəsi başlayanda Azərbaycan Ordusu bir qrup erməni hərbçini əsir götürüb. Həmin əsirlərin içərisində Lüdviq Mkrtçyan da olub.

İstintaq tərəfindən dindirilən Lüdviq Mkrtçyan Birinci Qarabağ müharibəsində əsir götürülmüş azərbaycanlılara işgəncələr verdiyini etiraf edib. Hətta Birinci Qarabağ müharibəsində erməni əsirliyində olmuş və qaytarılmış bir neçə azərbaycanlı hərbçi də üzləşmə zamanı Lüdviq Mkrtçyanı tanıyıb.

Hazırda Hərbi Prokurorluqda başlanmış cinayət işi üzrə zəruri-istintaq hərəkətləri davam etdirilir.

Bu hadisə həmçinin, bir daha Azərbaycan Respublikasının qanunların aliliyinə iştirakçı olduğu konvesiyaların tələblərinə hörmətlə yanaşdığının təsdiq edir.



Azərbayca Respublikası olaraq bu müharibədə bütün məslələrlə bağlı o cümlədən hər iki tərəfdə olan əsirlərə rəftar məslələrinə obyektiv yanaşmanın tərəfdarı olaraq, sosial şəbəkələrdə yayılan videoların, bütün materialların diqqətlə araşdırllmasından yanayıq. Həmçinin bu istiqamətdə günahkarların cəzalandırılmasının tərəfdarıyıq. Lakin təəssüf ki, bəzi xarici dövlətlər, beynəlxalq qurumlar bu məsələlərə qərəzli, ədalətsiz, birtərəfli yanaşma sərgiləyir, hətta bu məsələləri manipulyasiya edərək, kimlərinsə xeyrinə istifadə etməyə çalışırlar. Belə ki, mətbu orqanlarda Human Rights Watch (HRW) təşkilatının Cənubi Qafqaz məsələləri üzrə direktoru Georgi Gogia yayılmış videolarla bağlı "effektiv təhqiqat" aparılmasına çağırış etməsi və “effektiv təhqiqat fərdi və əmr verənlərin məsuliyyətlərini müəyyənləşdirməli və cinayət məsuliyyəti daşıyanlara müvafiq qaydada ittiham elan etməlidir" kimi müraciətini yayıb.

Əslində cənab Georgi Gogia “təşkilatın videoları müstəqil olaraq təsdiqləmədiyini, lakin görüntülərin müharibə cinayətləri ola biləcəyini” deməklə heç sübuta əsaslanmayan, heç bir tutarlı faktlarla təsdiqlənməyən, kimlərsə tərəfindən məqsədli şəkildə yayılan videoları əsas gətirərək, ehtimallara söykənərək birtərəfli şəkildə yalnız Azərbaycana çağırış etməsi qeyr-obyektivliyin təzahürüdür. .

Nədənsə, Human Rights Watch (HRW) təşkilatının təmsilçisi, 30 il ərzində Ermənistan tərəfinin yüzlərlə hərbi cinayətləri, əsirlər qarşı işgəncə və qətl hallara kifayət qədər tutarlı faktlar və dəlillərlə sübuta yetirilməsinə, dəfələrlə cinayətkarların cəzalandırılması ilə bağlı tələblərə laqeyd qalaraq, "əsirlərin edam edilməsi, işgəncə edilməsi, alçaldılması və onlara qarşı pis rəftar Üçüncü Cenevrə Konvensiyasının kobud pozuntusu və müharibə cinayətləridir." dəyərək, "silahlı qarşıdurma zamanı məhkəmədən kənar edam və işgəncə müharibə cinayətidir" kimi fikirləri söyləməsi həddən artıq səmimiyyətsiz və gecikmiş görünür.

Əslində Azərbaycan Respublikası üçün bu cür bəyanatlar, çağırışların edilməsinə ehtiyac yoxdur. Azərbaycan Respublikası bütün məsələlərdə olduğu kimi bu məsələdə də həm daxili qanunvericiliyə, həm də beynəlxalq normaların tələbləri çərçivəsində fəaliyyət göstərir. Ölkənin siyasi rəhbərliyi dövlətimizin rəşadətli ordumuzun, əsgərlərimizin döyüş meydanlarında qazandığı zəfərlərə gölgə salınmasını qarşısının alınması üçün bütün tədbirləri həyata keçirir. Bu mənada Azərbaycan Respublikası Baş Prokurorluğunun yaydığı məlumat diqqətə layiqdir. Məlumatda deyilir:" Bizim əsgərlərin qeyri-insani, kobud rəftarını əks etdirdiyi deyilən video görüntülərlə bağlı hazırda Baş Prokurorluqda araşdırmalar gedir. Bir çoxu saxta olsa da, bəzilərinin reallığı əks etdirməsi ilə bağlı şübhələrimiz var, buna görə də həmin görüntülərin, fotoşəkillərin hamısı araşdırılması üçün Hərbi Prokurorluğa göndərilib". Baş Prokurorluğun məlumatında bu video ilə bağlı cinayət işinə başlandığını deyilir.

"Faktla bağlı cinayət işi açılıb, bu, qeyd etdiyiniz başın kəsilməsi videosu da hazırda həmin cinayət işinin çərçivəsində araşdırılır. Əgər həqiqətən sübuta yetirilərsə ki, bunu törədənlər özümüzünkülərdir, çünki doğrudan da qeyri-insani rəftar görünür orda, o zaman onların məsuliyyət məsələsi ortaya çıxacaq,"

Daha sonra 4 nəfər hərbçimizin istintaqa cəlb edildiyi barədə rəsmi məlumatlar yayıldı.

Göründüyü kimi Azərbaycan Respublikası düşmən tərəfdən fərqli olaraq istənilən məsələyə ədalətli yanaşmanı, hərbi cinayətləri törədənlərə qarşı qanunların tələblərinə uyğun olaraq tədbirlər görüləcəyini, bununla da bir hüquqi dövlət olduğunu nümayiş etdirir. Bəs 30 ilə yaxın müddət ərzində torpaqlarımızı işğal altında saxlayan, vətəndaşlarımıza, o cümlədən əsirlərə qarşı saysız-hesabsız cinayətlər törədən, misli görünməmiş vəhşilik və vandallıq etmiş Ermənistan Respublikası bu günə qədər bir nəfər belə olsa hərbi canini cəzalandırıbmı? Bəs, bunu görüb, göz yuman, görməməzlikdən gələn riyakar, saxta, mənəviyyatdan uzaq "insan haqları müdafiəçiləri", əsirlərlə işgəncə, pis rəftar "əlehdarlarının", yalançı "sülh göyərçinlərinin" heçmi vicdanları sızlamır? .

Ermənistan Respublikasının əsir düşmüş vətəndaşlarının (mülki və hərbi) sayı yüzlərlə hesablansa, müxtəlif məlumatlardan, video görüntülərdən görürünür ki, Azərbaycan Silahlı qüvvələrinin hərbçiləri erməni əsirlərlə bir qayda olaraq konvensiyaların tələblərinə uyğun davranır, onlara tibb yardımın göstərilməsi, yemək, geyim və s. təminatları ödənilir. Hətta Rusiya və Ermənistan mətbuatının da etiraf etdiyinə görə son günlər onlarla hərbi əsir tərksilah edildikdən sonra, dərhal Rusiya Sülhməramlı Qüvvələrinə təhvil verilmişdir. Ermənistan tərəfinin Azərbaycanlı əsirlərlə heç olmasa buna bənzər humanist davranışı ilə bağlı bir dənə olsun misal yoxdur.

Rusiya Federasiyasının Prezidenti, Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikasının baş nazirinin imzaladıqları 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatdan, beynəlxalq humanitar hüquq normalarından irəli gələn öhdəliklərinə və humanizm prinsiplərinə sadiq qalaraq Azərbaycan tərəfi müharibə vaxtı əsir götürülmüş erməni hərbçilərinin hüquqlarının təmin edilməsi istiqamətində üzərinə düşən vəzifələri ardıcıl olaraq yerinə yetirmişdir. Əsir düşmüş ermənilər barədə məlumatlar müntəzəm Beynəlxalq Qızıl Xaç Komitəsi və Rusiya Sülhməramlı Qüvvələrinə təqdim olunmuş, birtərəfli qaydada onların bir hissəsi azad edilmişdir. Azərbaycanda olduqları müddətdə həmin əsirlərə zəruri tibbi xidmət və ləyaqətli davranış göstərilmiş, onlara ailələri ilə əlaqə saxlamaq imkanı yaradılmış və digər hüquqları təmin edilmişdir.

Həmçinin müxtəlif səbəblərdən döyüşlər zamanı əsir düşmüş və ya girov götürülmüş Azərbaycan vətəndaşlarının vətənə qaytarılması məsələlərini daim diqqət mərkəzində saxlayaraq Beynəlxalq Qızıl Xaç Komitəsi, Rusiya Sülhməramlı Qüvvələri və digər beynəlxalq təşkilatlarla tərəfimizdən fasiləsiz olaraq danışıqlar aparılmış və bütün mümkün başqa tədbirlər həyata keçirilmişdir.

Beynəlxalq təşkilatların və Rusiya Sülhməramlı Qüvvələri komandanlığının iştirakı ilə aparılmış danışıqlar nəticəsində erməni tərəfi ilə əsir və girovların "hamının hamıya" prinsipi əsasında dəyişdirilməsi barədə razılıq əldə olunmuş və cari il dekabrın 14-də əsir və girovların qarşılıqlı qaytarılmasına başlanılmışdır. Günorta saatlarında Azərbaycan vətəndaşları olan əsir və girovların, o cümlədən 2014-cü ilin iyul ayından erməni girovluğunda saxlanılan Şahbaz Quliyev və Dilqəm Əsgərovun təyyarə ilə Bakıya gətirilməsi təmin edilmişdir. Müvafiq karantin tədbirləri həyata keçirildikdən sonra azad olunmuş şəxslər ailələrinə qovuşacaqlar.

Azərbaycan tərəfi bundan sonra da humanizm prinsiplərini rəhbər tutaraq əsirlərin, girovların və meyitlərin dəyişdirilməsi üçün üzərinə götürdüyü öhdəlikləri yerinə yetirəcəkdir.



**Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının məlumatı**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığı ilə Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası tərəfindən həyata keçirilmiş tədbirlər nəticəsində erməni əsirliyindən və girovluğundan azad olunaraq 14 dekabr 2020-ci il tarixdə Bakıya gətirilmiş hərbi qulluqçuların və mülki vətəndaşların siyahısı:

1. Abdinov Yəhya Vüqar oğlu, 30.12.1999, hərbi qulluqçu
2. Baxşəliyev Emin Zahir oğlu, 22.01.1988, hərbi qulluqçu
3. Əhmədzadə Mobil İlqar oğlu, 22.04.1999, hərbi qulluqçu
4. Ələkbərov Ömər Teymur oğlu, 11.01.1985, hərbi qulluqçu
5. Əliyev Şərif Elsevər oğlu, 20.12.1995, hərbi qulluqçu
6. Əliyev Anar Hidayət oğlu, 28.06.1992, hərbi qulluqçu
7. Əlizadə Nurlan Mehman oğlu, 02.01.1992, hərbi qulluqçu
8. Həmidov Nahid Yaşar oğlu, 05.01.1991, hərbi qulluqçu
9. Kərimov Bayram Yaşar oğlu, 03.02.1992, hərbi qulluqçu
10. Musayev Amin Alim oğlu, 04.07.1994, hərbi qulluqçu
11. Vəliyev Vəliəhəd Şakir oğlu, 05.03.1998, hərbi qulluqçu
12. Yolçuyev Nurəddin Bəxtiyar oğlu, 14.10.1998, hərbi qulluqçu
13. Quliyev Şahbaz Cəlal oğlu, 09.05.1968, mülki şəxs
14. Əsgərov Dilqəm Qardaşxan oğlu, 30.09.1960, mülki şəxs

Hazırda adları qeyd edilən hərbi qulluqçularımız və mülki vətəndaşlarımız müayinə və müalicə olunurlar.








Vəliyev Vəliəhəd Şakir oğlu
05.03.1998
hərbi qulluqçu



Əliyev Şərif Elsevər oğlu
20.12.1995
hərbi qulluqçu



Əhmədzadə Mobil İlqar oğlu
22.04.1999
hərbi qulluqçu



Ələkbərov Ömər Teymur oğlu
11.01.1985
hərbi qulluqçu



Əsgərov Dilqəm Qardaşxan oğlu
30.09.1960
mülki şəxs



Quliyev Şahbaz Cəlal oğlu
09.05.1968
mülki şəxs



Əliyev Anar Hidayət oğlu
28.06.1992
hərbi qulluqçu



Abdinov Yəhya Vüqar oğlu
30.12.1999
hərbi qulluqçu



Həmidov Nahid Yaşar oğlu
05.01.1991
hərbi qulluqçu



Əlizadə Nurlan Mehman oğlu
02.01.1992
hərbi qulluqçu



Yolçuyev Nurəddin Bəxtiyar oğlu
14.10.1998
hərbi qulluqçu



Baxşəliyev Emin Zahir oğlu
22.01.1988
hərbi qulluqçu

# 5. Nəticə

1. Aparılan müşahidələr və tədqiqatlar təsdiq edir ki, əsirlər, hərbi əsirlər, girovlar və onlarla rəftarla bağlı beynəlxalql səviyyədə normativ sənədlər, konvensyalar mövcuddur və buna əksər dövlətlər qoşulublar. Lakin təcrübə göstərir ki, bu sənədlərin tələblərinə riayət edilməsi, bu prosesə nəzarət edilməsi ilə bağlı çox ciddi problemlər mövcuddur. İstər ayrı-ayrı dövlətlərin, istərsə bu sahədə fəaliyyət göstərən beynəlxalq təşkilatların bu məsələyə münasibətdə ikili standartlar, formal yanaşma, bəzən isə tərəfli, qərəzli yanaşma təzhürləri açıq hiss olunur. Ələxüsusda 30 ildən artıq davam edən Ermənistan-Azərbaycan münaqişəsində, bu müddətdə baş vermiş iki müharibədə (1992-ci il və 2020-ci il) bu problemlər çox ciddi şəkildə özünü biruzə vermişdir.
2. Əldə olunmuş materaillarla, təkzib olunmaz dəlillər və faktlarla sübut olunmuşdur ki, Ermənistan tərəfi əsir düşmüş azərbaycanlı hərbi qullquqçulara işgəncələr vermiş, şəxsiyyətinii alçaldan hərəkətlərə yol vermiş, şəhid olmuş hərbçilərimizin cəsədləri təhqir olunmuş, həmçinin əsir düşmüş Azərbaycan silahlı qüvvələri hərbi qulluqşularının qəddarlıqla, vəhşicəsinə qətlə yetirlməsi barədə məlumatlar var.
3. Son hadisələr bir daha sübut etdi ki, güclü havadarlarına güvənən Ermənistan Respublikası beynəlxalq normaları, ələlxüsusda, müharibə və hərbi məsələlərlə bağlı qəbul edilmiş Konvensiyaları saymır, illər ərzində törətdiyi hərbi cinayətlərin cəzasızlığından ruhlanaraq bu vəhşiliyi, vandallığı davam etdirmiş, öz mənfur, qeyri-insanı davranışlarını açıq-aşkar şəkildə daha genişləndirməyə çalışmışdır.
4. 30 ildən çox davam edən müddət ərzində azərbaycanlı əsirlərə qarşı törədilmiş pis rəftar, işgəncə, insan ləyaqətini alçaldan minlərlə sübut və fatkların olmasına baxmayaraq, bu cinayətləri törədən Ermənistan dövlətinin, silahlı qüvvələrinin ayrı-ayrı hərbçilərinin və s. bir dənə də olsa hətta formal olaraq cəzalandırılması faktı yoxdur. Əksinə Erməistan ən yüksək səviyyədə bunu aşkar şəkildə etiraf edir, hətta təbliğat, hədə-qorxu vasitəsi kimi istifadə edir. Təəssüf ki, bu vəziyyətlə bağlı nə ayrı-ayrı dövlətlərin, nə də beynəlxalq qürumların ciddi bir tədbirlərinə, beynəlxalq normaların müddəalarına əməl edilməsi ilə bağlı tələblərə, cüzi də olsa təzyiqinə də rast gəlinməyib.
5. Əsirlərlə bağlı düşmən tərəfin apardığı əkstəbliğat bir daha sübut edir ki, qarşı tərəf öz mənfur əməllərini ört-basdır etmək üçün, heç bir əsası olmayan, heç bir fakta söykənməyən feyk məlumatlar, əvvəlcədən səhnələşdirilmiş, hazırlanmış videoyazılar tərtib edərək, sosial şəbəkələr vasitə ilə tirajlanmasını təşkil etmiş, qərəzli şəkildə böhtan kompaniyası apararaq diqqəti Azərbaycan tərəfə yönəltməyə çalışırlar. Eyni zamanda bu fəaliyyət yalnız Ermənistanın həyata keçirdiyi iş deyil. Bu fəaliyyət ermənizmə dəstək verən bəzi transmilli qüvvələrin, mediaya, siyasi proseslərə təsir etmək imkanları olan güc mərkəzləri tərəfindən həyata keçirilir. Təssüf ki, bəzi “insan haqları müdafiəçiləri”, hərbi cinayətlərə qarşı mübarizə aparmalıı olan beynəlxaql təşkilatlar bu cür saxta məlumatları bayraq edərək Azərbaycana qarşı istifadə etməyə çalışırlar.
6. Azərbaycan Respublikası düşmən tərəfdən fərqli olaraq bir daha sübut etdi ki, dövlətimiz bütün məsələlərdə olduğu kimi hərbi əsirlərin saxlanması, onlarla rəftar məsələlərində də, həm daxili qanunvericiliyə, həm də beynəlxalq normaların tələbləri çərçivəsində fəaliyyət göstərir. Yəni ayrı-ayrı mənbələrdən daxil olan, müxtəlif sosial şəbəkələrdə hallandırılan istənilən məlumatlar, o cümlədən torpaqlarımızın işğaldan azad edilməsi istiqamətində aparılan döyüş əməliyyatları zamanı həlak olmuş erməni hərbçilərinin meyitləri üzərində təhqiredici hərəkətlər etmələrini, habelə əsir götürülmüş erməni hərbçiləri ilə pis rəftarla bağlı bütün siqnallar araşdırılır, hətta bununla bağlı cinayət işi də açılmışdır.